Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

18
SENTYABR
2019-cu il

№ 165 (4063)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# 2008-ci İLİN «1 MART» OLAYLARINDA PAŞİNYANIN ÖZ ƏLEYHİNƏ DƏ İTTİHAM MOTİVLƏRİ ORTAYA ÇIXIR...

səh. 6

Paşinyanın siyasəti üzündən Qarabağ danışıqları dayanır, hərbi yol gündəmə gəlir...

səh. 9

Ermənistan Hikmət Hacıyevin fikirləri üstündə tutarsız təbliğat oyunu qurur...

səh. 8

Paşinyanın komandası zəncirvari istefalar dalğası ilə üz-üzə...

səh. 7

Gürcüstana növbəti Cavaxetiya zərbəsi...

səh. 10

Səudiyyə neftinin vurulması İran-ABŞ toqquşmasını sürətləndirir

səh. 11

Cinsi zorakılıq üstündə həbs olunan yeniyetmələrin sayı niyə çoxalır...

səh. 14

Bəzi alış-veriş saytlarının həm də "intim xidmət" saytlarına çevrilməsi hiss olunmağa başlayır

səh. 14



səh. 7

## Ermənistanda iki antikorrupsiya qurumu - Paşinyan «köçəryançı» hakimlərə qarşı təqibin yeni üsulunu tapıb...





Ermənistandan xüsusi planla «azərbaycanlı» adı ilə mühacirət edənlərin dünya boyu ifşası başlayır...

səh. 5

MDB məkanında etnik separatizm problemlərinin hələlik heç biri həll olunmayıb - Qarabağ problemi də həmçinin...

səh. 8

Sosial şəbəkələrdə «qan alverçiləri» şəbəkəsi formalaşır...

səh. 12

səh. 4

Vilayət Eyvazov ağır cinayətlər tendensiyasının xeyli zəiflədiyinə dair maraqlı faktlar göstərdi...



səh. 4

Radikal müxalifət 28 sentyabr aksiyası üçün niyə "Gəncliyi", "Nərimanov"u və "28 May"ı istəyir...



səh. 13

Mediasiya xidməti boşanmaların say artım prosesinə necə təsir göstərə bilir...



səh. 15

Özünüməşğulluq proqramına cəlb olunmuş minə yaxın əlil şəxs - tək bu il ərzində...



səh. 12

İfşa olunmuş "Ləş Tofiq"in dönər bazarında qiymətlərə həlledici təsir imkanında olması təsdiqlənir...



## Ermənistan və Azərbaycan xarici işlər nazirləri bu ayın sonunda görüşə bilər

**BMT Baş Assambleyasının sentyabr ayında Nyu Yorkda keçiriləcək sessiyası çərçivəsində Ermənistan və Azərbaycan xarici işlər nazirləri görüşə bilər.**



"Trend"in məlumatına görə, bunu Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

H.Hacıyev bildirib ki, Ermənistan tərəfindən danışıqlar prosesinə ciddi zərbələr vurulur və danışıqlar prosesinin pozulması istiqamətində təxribatçı addımlar atılır. Ona görə də qarşıdan gələn görüşdə Azərbaycan tərəfinin mövqeyi həmsədrlərə də, Ermənistan tərəfinə də çatdırılacaq.

BMT Baş Assambleyasının ABŞ-ın Nyu-York şəhərində keçiriləcək 74-cü sessiyasında Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarov təmsil edəcək. Nazirin sentyabrın 28-da çıxışı da nəzərdə tutulur.

Qeyd edək ki, BMT-nin 74-cü sessiyası sentyabrın 17-də başlayacaq. Əsas müzakirələr isə sentyabrın 25-dən etibarən keçiriləcək.

## Azərbaycanla Qazaxıstan arasında Xəzər üzrə ikitərəfli məsləhətləşmələr keçirilib

**Xarici İşlər Nazirliyində Azərbaycanla Qazaxıstan arasında Xəzər dənizi məsələləri üzrə ikitərəfli məsləhətləşmələr keçirilib.**



XİN-dən bakixeber.com-a verilən məlumata görə, məsləhətləşmələrdə Azərbaycan tərəfini Xarici işlər nazirinin müavini, Azərbaycan Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfov, Qazaxıstan tərəfini isə Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, Qazaxıstan Respublikasının Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Zülfiyyə Amanjolova təmsil edib.

Məsləhətləşmələr zamanı Xəzər dənizinin dənizətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyasının Katibliyinin təsis olunması məsələsi müzakirə olunub və Katibliyin tezliklə fəaliyyətə başlaması məqsədilə Konvensiyanın tərəfləri arasında razılaşdırma prosedurunun sürətləndirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə Xəzəryanı dövlətlərin dövlət başçıları tərəfindən imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın implementasiyası üzrə, eləcə də Xəzəryanı dövlətlər arasında hazırda razılaşdırma mərhələsində olan sahəvi əməkdaşlıq məsələləri ilə bağlı saziş layihələri barədə fikir mübadiləsi aparılıb.

Həmçinin, tərəflər arasında Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun növbəti iclasının gündəliyində duran məsələlər, o cümlədən Xəzər dənizində düz çıxış xətlərinin müəyyən olunması metodikası haqqında Saziş layihəsi ilə bağlı müzakirələr baş tutub.

Bundan başqa, iki ölkə arasında Xəzər dənizi hövzəsində əməkdaşlığın mövcud vəziyyətindən məmnunluq ifadə olunub və bu xüsusda hazırda dənizin dibi ilə fiber-optik kabel xəttinin çəkilməsi prosesi və gələcəkdə mümkün ola biləcək digər layihələr barədə söhbət aparılıb.

Görüş zamanı tərəflər arasında qarşılıqlı maraq kəsb edən digər mövzular da müzakirə olunub.

## "Təhsil kreditləri haqqında" qanun layihəsi hazırlanır

**Təhsil haqlarının ödənilməsi ilə bağlı ayrıca qanun layihəsinin qəbulunu məqsədəuyğun hesab edirik.**

Bununla bağlı hazırda "Təhsil kreditləri haqqında" qanun layihəsinin hazırlanması gündəmdə olan əsas vacib məsələlərdəndir. "Trend"in məlumatına görə, bunu Milli Məclisin Elm və təhsil komitəsinin iclasında çıxış edən komitə sədri İsa Həbibbəyli deyib.

Onun sözlərinə görə, komitəyə daxil olan müraciətlərin böyük hissəsi tələbələrin təhsil haqlarının ödənilməsi ilə bağlı olub: "Təhsil haqlarının ödənilməsi ilə bağlı xüsusi qanun layihəsinin hazırlanmasını zəruri sayırıq. Bu istiqamətdə iş aparırıq. "Ali təhsil haqqında "qanun layihəsini bitirdikdən sonra "Təhsil kreditləri haqqında" qanun layihəsi hazırlanacaq. Artıq Təhsil Nazirliyi, müvafiq nazirliklər ilə müəyyən söhbətlər aparırıq. Təhsil Nazirliyi bu istiqamətdə öz təkliflərini də hazırlayıb Maliyyə Nazirliyinə təqdim edib".

# Prezident İlham Əliyev Gürcüstanın İqtisadiyyat və davamlı inkişaf nazirini qəbul edib



**Prezident İlham Əliyev sentyabrın 17-də Gürcüstanın İqtisadiyyat və davamlı inkişaf naziri xanım Natiya Turnavanı qəbul edib.**

Natiya Turnava Gürcüstanın Baş naziri Georgi Qaxarianın salamlarını dövlət başçısına çatdırıb.

Görüşdə Azərbaycanla Gürcüstan arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilərək, iqtisadi sahədə əməkdaşlığın ayrı-ayrı istiqamətlərdə genişlənməsindən məmnunluq ifadə olunub.

Söhbət zamanı iqtisadiyyatın şaxələndirilməsi hesabına ticarət dövriyyəsinin genişləndirilməsi, tranzit yükdaşımalarının həcminin artırılması məqsədilə Bakı-Tiflis-Qars dəmir yolunun imkanlarından istifadə edilməsi məsələləri müzakirə edilib, energetika, sərmayə qoyuluşu, elektroenergetika, turizm sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Dövlət başçısı Baş nazir Georgi Qaxarianın salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Gürcüstanın Baş nazirinə çatdırmağı xahiş edib.

# Əli Əhmədov: "Müxalifətin virtual növünün başında Əli Kərimli və xarici ölkələrdə sığınacaq almış fərdlər durur"



**Baş Nazirin müavini, hakim Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini - icra katibi Əli Əhmədov "Virtual müxalifət" adlı məqalə yazıb.**

"Trend" məqaləni təqdim edir:

"Azərbaycanda son vaxtlar yeni müxalifət növünün formalaşması heç kimə sirr deyil. Qısa şəkildə onu "virtual müxalifət" adlandırmaq olar. Müxalifətin bu növünün başında Əli Kərimli və xarici ölkələrdə sığınacaq almış fərdlər durur. Qədimdən mövcud olan "virtual" sözü o şeyi ifadə edir ki, fiziki olaraq mövcud deyil və yalnız kompüter şəraitində, fantaziyalarda görünür.

"Virtual" sözü kimi Əli Kərimlinin müxalifətçiliyi də qədimdir, 30-dan çox yaşı var. Real müxalifətçiliyin bir fayda vermədiyini anladığından sonra virtual müxalifətçiliyə keçib.

Virtual müxalifət özlüyündə siyasi prosesin ciddi iştirakçısı deyil. Belə olanda sual yarana bilər ki, bəs niyə ona diqqət ayırmalı oluruq. Bax bunun səbəbi var. Əvvəla, bir neçə personalı çıxmaqla, virtual müxalifətin "nümayəndələri" kimi özünü təqdim edənlər əslində pərdə arxasındadır və buna görə də kimliyi bəlli deyil. Sosial şəbəkələrdə özünü Azərbaycan müxalifətçisi kimi təqdim edib "canfəşanlıq" göstərənlər tamamilə mümkündür ki, azərbaycanlı və Azərbaycan vətəndaşı olmasın. Sosial şəbəkələrin yaratdığı anonimlik şəraiti bunu tamamilə mümkün edir. Son vaxtlar ölkədə siyasi proseslərə xarici müdaxilələr barədə aparılan diskussiyalar müəyyən dərəcədə həm də bu deyilənlərlə əlaqədardır.

İkincisi, siyasi proses vətəndaşın şəxsi iştirakını nəzərdə tutur, çünki söhbət konkret insanın iradəsinin ifadə olunmasından gedir. Yenə də həmin anonimlik, uydurma adlardan istifadə edilməsi belə bir şərtin reallaşmasını qeyri-mümkün edir. Fikir bildirən kimdir, etiraz edən kimdir, çağırış edən kimdir - bilinmir. Məlum deyil heç belə bir insan varmı, yaxud bir nəfər müxalif qondarma adlarla neçə nəfər kimi özünü təqdim edir. Demokratiyanın fundamental tələblərindən olan "bir nəfər, bir səs" prinsipi sosial şəbəkələrdə beləcə ayaqlar altına atılır və nəticədə haqqında söhbət etdiyimiz "virtual" müxalifət yaranır.

Üçüncüsü, "virtual" müxalifət siyasi prosesin çirkabla, mənəviyyatsızlıqla doldurulmasına, mənəvi dəyərlərin tapdalanmasına unikal imkan yaradır. Sosial şəbəkələrdə müxalifətin təmsilçilərinin davranışı artıq nəinki hamıya bəllidir, hətta çox ciddi ictimai narazılıq yaratmağa başlayıb. Görünən odur ki, cəmiyyətdə nə qədər ciddi mədəniyyət qıtlığından, mənəvi çatışmazlıqdan əziyyət çəkən, adi tərbiyəsi olmayan varsa, hamısı virtual müxalifətin "siyasi qəhrəmanları"na çevrilib və mahiyyət etibarilə hakimiyyət iddiasında olan Əli Kərimlinin "kölgə hökumətini" təşkil edirlər. Təsəvvür edirsinizmi, kim daha pis tərbiyəsizlik edirsə, daha ağır söyüşlər söyürsə, o, gələcək "virtual" hakimiyyətdə daha yüksək vəzifələrə iddia edə biləcək. Lazımi təhsili, əxlaqı, mənəvi keyfiyyətləri olmayanlar, ancaq söyüş söyməyi, insanı təhqir etməyi bacaranlar və hakimiyyət iddiaçıları... Xatırlayırsınızsa, biz bu yolu bir dəfə keçmişik. 1992-1993-cü illərdə. Onda da bu yolla hakimiyyətə gələnlərin ən "parlaq" nümayəndələrindən biri məhz Əli Kərimli idi. Fərq bundadır ki, əvvəllər o, söyüş söyənlər komandasının sıravi üzvü idi, indi isə komandanın başında durur, tapşırıqlar verir.

Dördüncüsü, söyüş və təhqirlər "virtual" müxalifətin təkcə əxlaq məsələsi deyil. Söyüş söyməyi bacarmaq üçün əxlaqi keyfiyyətlərin çatışmazlığı mütləq şərtdir. Bununla belə, unudulmamalıdır ki, "virtual" müxalifətin söyüş və təhqirləri düşünülmüş taktikadır. Onlar anlayır ki, rəqabət apardıqları Yeni Azərbaycan Partiyasının yüksək tərbiyəsi, əxlaqı, mədəniyyəti ilə seçilən üzvlərinə qarşı intellektual yarışda qalib gəlmək imkanına malik deyillər. Ona görə də "virtual" müxalifətin ifasında siyasi-intellektual diskussiyaların yerini söyüş və təhqirlər tutur. Yeqin bir də ona ümid edirlər ki, mənəvi terror vasitəsilə Yeni Azərbaycan Partiyasının ləyaqətli insanlarını, gənclərini, oğlan və qızları çirkindirib mübarizə meydanında tək qalacaqlar. Ancaq başa düşə bilmirlər ki, bu mənəviyyat, bu əxlaqla, bu cür mübarizə forması ilə tamam tək qalıblar. Cəmiyyət onlardan üz döndərib.

Azərbaycan cəmiyyəti əxlaqi keyfiyyətləri yerində olmayan mənəvi terrorçuların və qaragüruhun hərəkətlərinə layiqli cavab verməyin yolunu yaxşı bilir. Belə olmasaydı, nə keçən əsrin 90-cı illərinin total böhranından, dövlətin iflasından xilas olmaq, nə də ölkəni qısa müddətdə bu qədər inkişaf etdirmək, müasirləşdirmək və gücləndirmək olardı".

# Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov Ümumdünya Mətbuat Şuraları Assosiasiyası sədrinin birinci müavini seçilib

*Sentyabrın 12-13-də Bakıda Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısı keçirilib*

**Toplantını giriş sözü ilə açan Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov tədbirin iştirakçısı olan yerli və xarici nümayəndələri salamlayıb. Ümumdünya Mətbuat Şuraları Assosiasiyası (WAPC) barədə məlumat verən Ə.Amaşov bildirib ki, qurum 1992-ci ildə söz və ifadə azadlığı ilə bağlı məsələlərə önəm vermək, jurnalist peşəkarlığının forma və xüsusiyyətlərini təhlil etmək, mövcud istiqamətdəki standartların tədbiqinə dəstək olmaq məqsədilə yaradılıb.**

Assosiasiya ötən müddətdə mühüm fəaliyyət yolu keçib, medianın özünütənzimləmə orqanlarının ali strukturu kimi populyarlaşıb. Bunu təmin edən cəhət təşkilatın kütləvi informasiya vasitələrinin müstəqilliklərinin qorunmasına böyük önəm verməsidir. Belə dəst-xətt üzv ölkələrdə vətəndaş cəmiyyətinin inkişafına, hüquqi dövlət quruculuğu prosesinin dərinləşməsinə dəstəkdir, müxtəlif siyasi quruluşlara malik ölkələrdə plüralist fikrin inkişafına layiqli töhfədir: "Assosiasiya tərkibində Avropanın və Asiyanın nüfuzlu media strukturlarını birləşdirməkdədir. Azərbaycan Mətbuat Şurası 2005-ci ildən onun üzvüdür. Təşkilata üzvlük Azərbaycan Mətbuat Şurasının beynəlxalq əlaqələrinin qurulmasında və inkişafında mühüm rol oynayıb. Şura hazırda Avropa Mətbuat Şuraları Alyansında təmsil olunur, dünyanın müxtəlif beynəlxalq media qurumları ilə əməkdaşlığa, həmçinin Avropa Şurası, BMT kimi nüfuzlu qurumlarla sıx təmaslara malikdir. Azərbaycan Mətbuat Şurası bu təşkilatların media ilə bağlı layihələrində mühüm tərəfdaş qismində çıxış edir", - deyə Ə.Amaşov vurğulayıb.

Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının sədri Sule Aker çıxışında rəhbərlik etdiyi təşkilatın illik toplantısının Azərbaycanda təşkilindən məmnunluğunu ifadə edib. Söz və ifadə azadlığı kimi bəşəri dəyərlərin fövqündə durulmasının vacibliyini vurğulayan sədr təmsil olunduğu qurumun bu istiqamətdəki fəaliyyət istiqamətlərindən söz açıb. S.Aker toplantıda səslənəcək fikirlərin təşkilatın gələcək perspektivlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli olacağına əminliyini ifadə edib.

Çıxış edənlərdən Türkiyə Mətbuat Şurasının sədri Zərin Pınar Turenc, Zimbabve Mətbuat Şurasının sədri Loughti Dube, Nepal Mətbuat Şurasının sədri Kişor Shrestha, Şri-Lanka Mətbuat Şurasının sədri Kogala Vellala Bandula, Tanzaniya Mətbuat Şurasının sədri Kajibu Mukajanqa, Kosova Mətbuat Şurasının sədri İbrahim Arslan bə başqaları söz və ifadə azadlığının müxtəlif aspektlərinə diqqət çəkərək bu dəyərlərin qorunmasındakı tendensiyalardan söz açıblar. Onlar Ümumdünya Mətbuat Şuraları Asssosiasiyasının illik toplantısının Bakıda keçirilməsini yüksək qiymətləndirdiklərini vurğulayıblar.

Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısında təşkilata üzv qurumların hesabatları dinlənib. Azərbaycan Mətbuat Şurasının hesabatında qurumun media orqanları ilə əlaqədar şikayətlərin araşdırılması istiqamətindəki fəaliyyəti üzərində dayanılıb. Bildirilib ki, Şuranın şikayətlərə baxılmasında tətbiq etdiyi prinsiplər dəyişməzdir. Bunlar ilkin mərhələdə onların katiblikdə araşdırılması, tərəflər arasında barışığın əldə edilməsidir. Əgər tərəflər arasında razılıq yaranmırsa, toplanmış materiallar Şikayətlər üzrə Komissiyaya təqdim olunur. MŞ-nin hesabatında şikayətlərin motivi, şikayətçilərin tələbləri, Şuranın çıxardığı qərarların cavabdehlər qarşısında müəyyənləşdirdiyi ictimai məsuliyyət növləri xatırladılıb, həmçinin peşə davranışı qaydalarının pozulmasındakı təmayüllərə nəzər salınıb.

Toplantıda Türkiyə, Hindistan, İraq, Nepal, Şri-Lanka, Zimbabve, Keniya, Makedoniya, Şimali Kipr Türk Cümhuriyyəti, Tanzaniya, Kosova, Uqandanın Mətbuat Şuralarının hesabatları dinlənilib.

Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısında təşkilata üzv ölkələrdə söz və ifadə azadlığının vəziyyəti, bu sahədəki tendensiyalar, xüsusən də dünyanın müxtəlif yerlərində jurnalist qətlləri ətraflı müzakirə olunub. Belə hallara beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək üçün assosiasiyanın görməli olduğu işlər nəzərdən keçirilib.

Toplantıda Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının təşkilati məsələlərinə də baxılıb. Nizamnaməyə uyğun olaraq keçirilmiş səsvermə nəticəsində Assosiasiyanın hazırkı sədri, Şimali Kipr Türk Cümhuriyyətinin Mətbuat Şurasının rəhbəri Sule Aker yenidə qurumun sədri, Azərbaycan Mətbuat Şurasının sədri Ə.Amaşov sədrin birinci müavini seçilib. Eyni zamanda qurumun digər struktur bölmələrinin rəhbərləri də müəyyənləşdirilib. Növbəti toplantının gələn il Keniyada təşkili qərara alınıb.

***

Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısı çərçivəsində sentyabrın 13-də "Müharibə və ya münaqişə ilə bağlı yaranmış ekstremal vəziyyətlərdə jurnalist fəaliyyətinin xarakteri" mövzusunda konfrans keçirilib. Hüquqşünas-ekspert Orxan Amaşovun moderatorluğu ilə keçirilmiş bu tədbirdə Azərbaycan tərəfdən iki çıxış səslənib.




MŞ sədrinin müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu çıxışında bildirib ki, münaqişə və müharibə meydanından məlumatların isti-isti yayılması 1653-cü ildə baş verən holland-ingilis dəniz müharibəsi zamanı qayıqdan müharibə səhnələrini müşahidə edən rəssam Vilyem van de Vildenin döyüş meydanından hazırlanan eskizləri və qeydləri idi. XIX əsrdən Müharibə və münaqişə bölgələrindən hazırlanan yazılar, məlumatlar daha geniş yayılmağa və ictimaiyyəti daha çox maraqlandırmağa başladı. Beləliklə hərbi jurnalistika yarandı. Qarabağda peşə fəaliyyəti zamanı öldürülən ilk qadın jurnalist Salatın Əsgərova, jurnalistlər Leonid Lazarevic, Valeriy Dementyev, Alı Mustafayev, Fəxrəddin Şahbazov, Çingiz Mustafayev və öz yazılarında həqiqəti əks etdirmək və münaqişənin əsl simasını açmaq istəyən bir çox insanlar həlak oldu. Bu hələ son deyildi. Çeçenistanda, Abxaziyada onlarla günahsız jurnalist öz peşəkar vəzifələrini yerinə yetirərkən öldürüldülər. Sintia Elbaum və Viktor Popkov kimi məşhur jurnalistlər Çeçenistanda, George Xanya isə Abxaziyada həlak oldular. Bunlar 80-ci illərin sonu 90-cı illərin əvvəllərində yaranan münaqişələrin ilk qurbanları idi. Daha sonra postsovet məkanındakı münaqişələri işıqlandıran və canlarını tapşıran bir çox jurnalistin adları bu siyahıya əlavə edildi: "YUNESKO-nun məlumatına görə, 1993-cü ildən bəri 1.354 jurnalist qətlə yetirilib. Təkcə 2018-ci ildə "Sərhədsiz Reportyorlar Təşkilatı"nın hesabatına görə, dünyada 80 jurnalist peşə fəaliyyətinə görə öldürülüb. 2018-ci ildə jurnalistlər üçün ən təhlükəli ölkələr kimi qeydə alınan ölkələr Əfqanıstan, Suriya, Hindistan, Meksika və Yəmən oldu. Bu gün vəziyyətin heç də yaxşılaşmadığını deyə bilərik. 2019-cu ildə təxminən 35 jurnalist həlak olub", - deyən U.Rəhimoğlu əlavə edib ki, hazırda 50-dən çox ölkə hərbi münaqişələrə cəlb olunub. Bütün dünyada mövcud və dondurulmuş münaqişələrin sayı, nəzarətsiz və işğal olunmuş ərazilərdə törədilən cinayətlər, beynəlxalq hüquq prinsiplərinin tanınmaması, qeyri-obyektiv məlumatların yayılması, jurnalistikanın əsas prinsiplərinin pozulması, bütün bunlar jurnalistlərin müdafiəsinin təmin edilməsi prosesinə mane olur. Bu gün mülki əhaliyə qarşı tətbiq olunan beynəlxalq hüquq və normalar Cenevrə Konvensiyasının 49-cu maddəsinə uyğun olaraq jurnalistlərə də şamil olunur. BMT-nin Baş Assambleyanın 2 noyabr 2013-cü il tarixli "Jurnalistlərin təhlükəsizliyi və cəzasızlıq problemləri" adlı qətnaməsi isə jurnalistlərin təhlükəsizliyini təmin etmək üçün çox vacib sənəd oldu. U.Rəhimoğlu çıxışında həmçinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya birliyinə çatdırılmasında jurnalistikanın daşıdığı missiyaya diqqət çəkib.

"Azeri Defence" hərbi jurnalının təsisçisi və baş redaktoru Rəşad Süleymanov çıxışında bildirib ki, regionumuzda dəyişən mürəkkəb hərbi-təhlükəsizlik mühiti medianın qarşısında da yeni tələblər qoyur. Bu tələblərin də ən başlıcası konflikt zonasında çalışan jurnalistlərin peşəkarlığının yüksəldilməsidir.

Son on ildə postsovet məkanında baş verən silahlı münaqişələrə diqqət çəkən R.Süleymanov 2008-ci ilin avqustunda Gürcüstan və Rusiya arasında baş vermiş müharibədə 12 KİV əməkdaşının yaralandığını, 1-nin həlak olduğunu vurğulayıb. O bildirib ki, 2014-2015-ci illərdə Ukraynanın şərqində - Donbas regionunda baş verən hərbi əməliyyatları hər iki tərəfdən işıqlandıran 7 jurnalist və ya operator həlak olub: "Etiraf etməliyik ki, istər 2008-ci ilin mart ayında, istərsə də 2014-cü ilin avqust ayında Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş verən lokal toqquşmalarda Azəbaycan mediasının hazırlıqsız olduğu üzə çıxdı. Məhz bundan sonra, Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının rəhbərinin KİV rəhbərləri ilə görüşü keçirildi və 2015-ci ilin avqustunda Nazirlər Kabineti tərəfindən "Jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılması Qaydası" təsdiq edildi. Adıçəkilən sənəd jurnalistlərin Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan Respublikasının Silahlı Qüvvələri ilə təmas xəttində, cəbhəboyu zonada akkreditasiyası, o cümlədən kütləvi informasiya vasitələri nümayəndələrinin cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Müdafiə Nazirliyi ilə razılaşdırılması qaydasını müəyyən edir. Qaydalara əsasən istənilən KİV öz nümayəndələrini akkreditə edə bilər. Akkreditə edilmiş jurnalistə qapalı tədbirlər istisna olmaqla, iclas, müşavirə və digər tədbirlər barədə əvvəlcədən məlumat verilir, onun stenoqramlarla, protokollarla və müvafiq sənədlərlə tanış olması üçün şərait yaradılır. Sözügedən qaydalar Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan xarici KİV-lərə də şamil olunur.

R.Süleymanov çıxışında münaqişə zonalarına ezam olunan jurnalistlərin daha çox ordunun inventarındakı müvəqqəti dəbilqə və zirehli gödəkcələrdən istifadə etdiklərini diqqətə çatdırıb. O, həmin dəbilqə və gödəkcələrin kamuflyaj edildiyini və buna görə də jurnalistlərin həyatı üçün bilavasitə təhlükə yaratdığını bildirib: "Düşmən snayperi kamuflyajdakının əsgər və ya jurnalist olduğunun fərqində olmur. Ermənistanda fəaliyyət göstərən "Şant TV" adlı internet televiziyanın əməkdaşı Arşak Zaxaryan və onun əməkdaşları nəinki hərbi kamuflyajdan, hətta cəbhə zonasına gələrkən hərbi avtomobillər kimi kamuflyaj etdiyi özünün şəxsi nəqliyyat vasitəsindən istifadə edir. Onun yayımladığı kadrların bir çoxunda Kalaşnikov avtomatı ilə silahlı şəkildə gəzdiyi yer alır".

Konfransda yerli və xarici nümayəndələr tərəfindən səslənmiş çıxışlarda jurnalist təhlükəsizliyinin müxtəlif aspektləri müzakirəyə çıxarılıb.

**Azərbaycanda hüquq-mühafizə orqanlarının cinayətkarlıqla bağlı apardığı mübarizə özünün müsbət nəticəsini verir. Son illər ölkəmizdə ağır cinayətlərin sayında azalma müşahidə edilir.**

# Vilayət Eyvazov ağır cinayətlər tendensiyasının xeyli zəiflədiyinə dair maraqlı faktlar göstərdi...



Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Daxili İşlər Nazirliyində "Mülkiyyət əleyhinə olan cinayətlərin və qeyri-aşkar şəraitdə baş vermiş xırda talamaların qarşısının alınması və açılması"nın, həmçinin, "Polis sahə rəisləri və inspektorları tərəfindən inzibati qanunvericiliyin tətbiqi sahəsində görülmüş işlər"in vəziyyətinə və qarşıda duran vəzifələrə həsr olunan Kollegiya iclasında bir sıra sahələrdə cinayətlərin azaldığını bildirib. "Bu ilin 8 ayında asayişin və ictimai təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələr, bütövlükdə, layiqincə yerinə yetirilib, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının qorunmasında əldə olunan müsbət nəticələr hesabat dövründə də qorunub-saxlanıb".

Nazir, həmçinin, bildirib ki, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə bu ilin 8 ayında qəsdən adamöldürmələrin 13,8, adamöldürməyə cəhdlərin 18,5, qəsdən sağlamlığa ağır zərərvurmaların 1,8, odlu silahın tətbiqi ilə törədilən cinayətlərin 7,5, mülkiyyət əleyhinə olan cinayətlərin 12,2, o cümlədən, quldurluqların 7, hədə-qorxu ilə tələb etmələrin 19, dələduzluqların 27 faiz azaldığını, habelə cinayətlərin açılmasının yüksək olduğunu qeyd edib.

**Şəmsəddin Əliyev:** *"Hesab edirəm ki, qəsdən adamöldürmə, adamöldürməyə cəhdlər kimi ağır cinayətlərin azalması polisin cinayətkarlıqla bağlı apardığı mütəşəkkil, davamlı mübarizənin uğurlu nəticəsidir"*

Məsələyə münasibət bildirən "Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev hesab edir ki, qəsdən adamöldürmələrin 13,8, adamöldürməyə cəhdlərin 18,5, qəsdən sağlamlığa ağır zərərvurmaların 1,8 azalması hüquq-mühafizə orqanlarının həyata keçirdiyi tədbirlərlə bağlıdır.

*"...polis və ictimaiyyət birliyi bu kimi ağır cinayətlərin dinamikasının azalmasına səbəb olub"*

"Ümumiyyətlə, son zamanlar ölkədə şəxsiyyət əleyhinə, vətəndaşların sağlamlığına qəsdən zərər vurmaqla bağlı cinayətlərin sayında azalma müşahidə edilir.

Əvvəla bu, son illər ölkədə sabitliyin qorunub-saxlanması, vətəndaların təhlükəsizliyinin müdafiə olunması, ictimai qaydaların qorunması, bu məsələlərə xüsusi nəzarət olunması deməkdir. Eyni zamanda da bu, dövlətin cinayətkarlıqla mübarizə siyasətinin düzgün formalaşdırılmasının nəticəsidir. Belə bir ifadə vardı: "hər şey nəzarətdədir". Bu bir az qeyri-adi səslənsə də, amma vacib məsələdir. Bilirsiniz ki, həm Azərbaycan vətəndaşlarının, həm də xarici turistlərin təhlükəsizliyi hüquq-mühafizə orqanları tərəfindən tam şəkildə qorunur. Ölkədə mövcud olan sabitlik, eləcə də vətəndaşların müdafiəsinin yüksək səviyyədə təşkil olunması, ictimai mühitdəki sağlamlıq, polis və ictimaiyyət birliyi bu kimi ağır cinayətlərin dinamikasının azalmasına səbəb olub. Hesab edirəm ki, qəsdən adamöldürmə, adamöldürməyə cəhdlər kimi ağır cinayətlərin azalması polisin cinayətkarlıqla bağlı apardığı mütəşəkkil, davamlı mübarizənin uğurlu nəticəsidir.

**Burada vətəndaş və polis birliyi amili də var. Vətəndaşlar hər zaman polislə bərabər olmalıdırlar. Belə olduğu təqdirdə həm dayanıqlıq təmin olunar, həm də ağır cinayətlərin sayı daha da azalar" - deyə Ş.Əliyev qeyd etdi.**

*İradə SARIYEVA*

**Əli Kərimlinin nəzarətində olan AXCP-nin orbitindən çıxa bilməyən, formal olaraq müstəqil qurum adını daşıyan "Milli Şura" 28 sentyabra mitinq təyin edib. Mitinqin təyin edilməsi maraqlı dönəmə təsadüf edir. İqtidarla müxalifət arasında sentyabrın 11-də keçirilən "dəyirmi masa"dan dərhal sonra belə bir qərar verildi.**

# Radikal müxalifət 28 sentyabr aksiyası üçün niyə "Gəncliyi", "Nərimanov"u və "28 May"ı istəyir...




Artıq radikal müxalifət tərəfdarlarının həmin mitinqdə iştirakla bağlı təbliğata start verdikləri müşahidə olunur. Sosial şəbəkələrdə aparılan bu təbliğata xaricdəki söyüşçül mühacirlərin də dəstək verdiyi görünür. Sanki bu məsələdə onların fikirləri üst-üstə düşür. Çünki onlar da uzun müddətdir "Bir payız axşamı" adlı təbliğat aparırlar. Maraqlıdır ki, müxalifətin daim icazəli aksiyalar keçirdiyi məkan kimi tanınan "Məhsul" stadionunun təmirə bağlandığı bir vaxtda mitinq qərarının verilməsi və aksiyanı keçirmək üçün üç metro stansiyasının qarşısının göstərilməsi ciddi suallar doğurub.

"Məhsul" stadionu təmirdə olduğundan, radikallar yeni mitinqləri üçün 3 yerdən birini istəyir:

1) Metronun "28 May" stansiyasının qarşısı;

2) "Nərimanov" stansiyasının qarşısı;

3) "Gənclik" stansiyasının qarşısı.

Aydındır ki, belə izdihamlı yerlərdə mitinqə prinsipial olaraq icazə verilə bilməz. Heç orada mitinqin keçirilməsi üçün lazım olan şərait də yoxdur. Onda isə radikalların belə gur yerlərdə mitinq keçirmək istəklərinin kökündə hansı maraqlar dura bilər?

**Samir Adıgözəlli:** *"Deyilən metro stansiyalarının çıxışında nə vaxt görübsünüz ki, mitinq keçirilsin?"*

İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) sədri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu, artıq açıq şəkildə ölkənin qanunlarına, təhlükəsizlik mühitinə meydan oxumaqdan başqa nəsə deyil: "Radikalların əsas təbliğat ruporu rolunda xaricdən yayımlanan internet səhifələri və televiziyaları çıxış edirlər. Onlar yay boyu payıza hazırlıqla bağlı təbliğat aparırdılar. Açıq şəkildə deyirdilər ki, payızda inqilab etmək istəyirlər. Əli Kərimli və onun dəstəsinin bu addımları sübut edir ki, proseslər eyni mərkəzdən idarə edilir. Məqsəd birdir: Azərbaycandakı sabitliyi pozmaq. Onlar anlayırlar ki, seçki yolu ilə nəsə edə bilməyəcəklər, çünki arxalarında lazım olan elektoratları yoxdur. Bu səbəbdən də belə yollara əl atırlar.

*"Elə təklif etdikləri yerlərdən onların niyyətləri aydın görünür"*

Deyilən metro stansiyalarının çıxışında nə vaxt görübsünüz ki, mitinq keçirilsin? Elə təklif etdikləri yerlərdən onların niyyətləri aydın görünür. Təbii ki, icazə vermək səlahiyyəti Bakı Şəhər İcra Hakimiyyətinə aiddir. Əlaqədar qurumlar da qarşıdurma yaratmaq niyyətini görməlidirlər. Bu bir sifarişdir. Prosesə siyasətlə heç bir əlaqəsi olmayan sadə vətəndaşları da zorla cəlb etmək istəyirlər. Ancaq bilməlidirlər ki, Azərbaycan dövləti güclüdür və hər bir təxribatın qarşısını almağa qadirdir. Aydın şəkildə görünür ki, burada dinc etiraz etmək yox, ölkəni xaosa sürükləmək cəhdi var.

**Dövlətçiliyin nə olduğunu anlayan bütün siyasi qüvvələr, vətəndaşlar radikal qüvvələrin bu məkrli niyyətinin qarşısını almaq yolunda addımlar atmalıdırlar. Biz yol verə bilmərik ki, ölkəni Suriyaya və ya başqa bənzər məkanlara çevirsinlər".**

*Məhəmmədəli QƏRİBLİ*

# Ermənistandan xüsusi planla "azərbaycanlı" adı ilə mühacirət edənlərin dünya boyu ifşası başlayır...

***Qasım Hacıyev:** ”Paşinyan rejimi xüsusi hiylələrlik işlədərək bu ölkədən xaricə köçən ermənilərə ”azərbaycanlı” sənədi verir ki...”*

**Monoetnik dövlət olan Ermənistanda ermənilərdən və erməniləşdirilmiş yezidi kürdlərdən başqa heç bir xalqın nümayəndəsi yaşamır. Son illər beynəlxalq aləmdə özünü "çoxmillətli dövlət" kimi təqdim etməyə çalışan Ermənistanın bütün cəhdləri iflasa uğrayır.**

Məlumdur ki, Ermənistan müstəqillik əldə etdikdən sonra bu ölkədən xarici ölkələrə kütləvi köçlər başladı. Bu gün də həmin tendensiya davam edir və Ermənistan boşalır. Ekspertlərin fikrincə, hazırda bu ölkənin bölgələri tamamilə boşalmaq təhlükəsi ilə üzləşib. Qocaları və əlsiz-ayaqsızları çıxmaq şərtilə bütün ayağı yer tutanlar Ermənistanı tərk edir, bir parça çörək qazanmaq üçün Rusiyaya, xüsusən də Avropa ölkələrinə axın edirlər. Qəribə hal ondan ibarətdir ki, Ermənistandan xarici ölkələrdə siyasi sığınacaq alanlar özlərini "Ermənistanda yaşayan azərbaycanlı ailələr" kimi təqdim edirlər. Guya ki, onlar Ermənistan vətəndaşı olan "azərbaycanlı"lardır və Paşinyan hakimiyyətinin zorakılıq siyasətindən əziyyət çəkdikləri üçün bu addımı atıblar.

Məlum olduğu kimi, ermənilərin özlərini "azərbaycanlı" kimi təqdim etməsinin altında incə bir erməni hiyləsi, məkri dayanır. Əslində, onların saxta sənədlərlə "azərbaycanlı" adı ilə mühacirət etməsi Ermənistanın xeyrinədir. Onların "azərbaycanlı" kimliyi almasında Paşinyan hökuməti xüsusilə maraqlıdır. Bu mənada ki, Ermənistan hökuməti bununla "sübut" etmək istəyir ki, Ermənistan monoetnik dövlət deyil, burada "azərbaycanlılar" da yaşayırlar. Həqiqətdə isə Ermənistanda nəinki azərbaycanlılar, hətta gürcülər. ruslar və digər xalqların təmsilçiləri belə yaşamırlar. Onu da qeyd edək ki, Ermənistandan qaçıb xarici ölkələrdə sığınacaq almaq istəyən "azərbaycanlılar"ın şəxsiyyətləri araşdırılandan sonra onların erməni olduğu üzə çıxır, bu da onların deportasiyası ilə nəticələnir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, ermənilər nəinki Ermənistanda, eləcə də başqa ölkələrdə özlərini "azərbaycanlı" kimi təqdim etməkdən çəkinmirlər. Bunun Azərbaycana qarşı böyük təxribat olduğunu deyən Q.Hacıyevin sözlərinə görə, Ermənistan bütün dünyada özünü humanist, sülhsevər bir dövlət kimi təqdim etməyə cəhd göstərir. "Ermənistan get-gedə boşalır, ermənilər buranı kütləvi olaraq tərk edirlər. Əlbəttə, bu, ilk növbədə, ölkədə baş alıb gedən aclıqla, səfalətlə, iqtisadi tənəzzüllə, işsizliklə bağlıdır. Digər tərəfdən də ermənilər Paşinyan rejiminin amansız davranışlarından əziyyət çəkirlər. O ki, qaldı Ermənistandan köçüb gedən ermənilərin özlərini "azərbaycanlı" kimi təqdim edərək Avropa ölkələrindən siyasi sığınacaq almasına, bu faktdır və ermənilər son illər bu üsuldan istifadə edirlər. Hesab edirəm ki, bu, məqsədli şəkildə həyata keçirilən bir siyasətdir. Bilirsiniz ki, Avropada ermənilərin çox pis imici var və Ermənistandan köçüb gedən ermənilər bu ölkələrdə arzuedilən deyillər. Çünki onlar siyasi sığınacaq almaq istədikləri ölkələrdə cinayətlər törədir, oğurluq edir, başqa xoşagəlməz əməllərlə məşğul olurlar. Bu amil də onların Avropa ölkələrində sığınacaq almalarına əngəl törədir. Ermənilərin xarici ölkələrə "azərbaycanlı" kimi mühacirət etməsinin səbəbi həm Ermənistanı "çoxmillətli" dövlət kimi göstərmək, həm də azərbaycanlıların adından istifadə edərək həmin ölkələrdə sığınacaq almaqdır. Əslində, həmin ermənilərə "azərbaycanlı" sənədini Ermənistanın müvafiq qurumları verir. Yəni onlar bu sənədləri birbaşa Paşinyan rejimindən əldə edirlər. Əlbəttə, dünyada ermənilər kimi hiyləgər, məkrli, hər şeydən öz mənfəətləri üçün istifadə edən ikinci bir xalq yoxdur. "Azərbaycanlı" adından da onlar öz çirkin niyyətlərini həyata keçirmək üçün açıq şəkildə istifadə edirlər".



*”Avropada ermənilərin çox pis imici var və Ermənistandan köçüb gedən ermənilər bu ölkələrdə arzuedilən deyillər”*

Q.Hacıyevin sözlərinə görə, hətta Türkiyədə belə özünü "azərbaycanlı" kimi təqdim edən ermənilər çoxdur, lakin onların sənədləri dərindən araşdırıldıqdan sonra erməni olduqları üzə çıxır. Q.Hacıyevin bildirdiyinə görə, "azərbaycanlı" adı ilə Ermənistandan Avropa ölkələrinə mühacirət edən ermənilərin də kimliyi araşdırıldıqdan sonra onlar həmin ölkələrdən Ermənistana deportasiya edilirlər. "Paşinyan rejimi xüsusi hiyləgərlik işlədərək bu ölkədən xaricə köçən ermənilərə "azərbaycanlı" sənədi verir ki, guya onlar Ermənistanda yaşayan "azərbaycanlılardır". Halbuki, Ermənistanda bir nəfər də olsa azərbaycanlı yaşamır. Ermənilər 1988-ci ildə azərbaycanlıları bir nəfərinədək öz ata-baba yurdlarından deportasiya ediblər.

Bilirsiniz, bu gün bütün beynəlxalq ictimaiyyət Ermənistanı monoetnik dövlət olmaqda suçlayır. Bu halda, ermənilərin köməyinə müxtəlif hiylə və saxtakarlıqlar gəlir. Bunlardan biri də özlərini "azərbaycanlı" kimi təqdim etmələridir" - deyə Q.Hacıyev vurğuladı.

***İradə SARIYEVA***

# 2008-ci ilin "1 mart" olaylarında Paşinyanın öz əleyhinə də ittiham motivləri ortaya çıxır...

**Artıq Ermənistanda Nikol Paşinyanın da Köçəryanın həbs edildiyi "1 mart" hadisələrində əlinin olduğuna dair fikirlər səslənməyə başlayıb. Ermənistanın sabiq baş naziri Qrant Baqratyan bildirib ki, Putinin Ermənistana səfəri çərçivəsində Köçəryanla görüşmək istəməsi onları pis vəziyyətdə qoya bilər:**

"Bəli, Putin gizlətmir ki, Robert Köçəryanla dostluq əlaqələri var. Lakin o demək istəyir ki, qardaş, nə üçün adamı bağlamısınız? Mühakimə edin, məhkəmə prosesi başlasın, görək günahkardır, yoxsa yox". Onun sözlərinə görə, Qərb də Köçəryanı azadlıqda görmək istəmir, çünki Köçəryanı rusiyönümlü siyasi xadim hesab edir.

Baqratyan qeyd edib ki, Putin, sadəcə, Qərbin təsirinə qarşı mübarizə aparır: "1 mart sırf siyasi prosesdir, mən burada cinayət elementi görmürəm. Yaxşı, əgər siyasi prosesdirsə, o zaman Rusiya olduqca səs-küylü şəkildə cavab verəcək və deyəcək ki, Qərbin ağlına düşmüsən?". Baqratyan deyir ki, Nikol Paşinyan özü 2008-ci ilin "1 mart" hadisələrinə görə məsuliyyət daşıyır. Çünki Paşinyan tribunadan kütləni polisləri döyməyə, onların qalxan və dəbilqələrini ələ keçirməyə çağırırdı. Baqratyan istisna etmir ki, yeni hakimiyyətin siyasi uğursuzluqları təcrübəsizliklə bağlı ola bilər. Lakin onun fikrincə, bu da onlara haqq qazandırmır: "Bizdə heç nə bilməyən, bir az təcrübə keçib sonra rəhbərlik etmək istəyən hansısa adamlar üçün ölkə yoxdur. Belə adamlar gedib bağ-bostan sahəsində işləməli, orada pomidor, xiyar və qarğıdalı yetişdirməlidirlər". Baqratyan Rusiya ilə pisləşən münasibətlərin Ermənistan üçün ağrılı nəticələrə gətirib çıxaracağını da vurğulayır.

Paşinyanın "1 mart" hadisələrinə görə məsuliyyətinin müəyyənləşməsi hansı nəticələrə səbəb ola bilər?

Politoloq Zamin Axundov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, artıq Paşinyanın bu kartla siyasi manipulyasiya etdiyi məlum olur: "Hətta bir sıra ittihamlar öz təsdiqini tapmır. Bu günlərdə Ermənistanda "1 mart" işi çərçivəsində qətl törətməkdə ittiham edilərək həbs edilən polis qoşunlarının sabiq qərargah rəisi Qeğam Petrosyanın azad edildiyi məlum olub. Ondan qətimkan tədbiri olaraq yaşayış yerini tərk etməmə haqqında imza alınıb.

Onun azadlığa buraxılması ilə Paşinyan hakimiyyətinin növbəti yalan və mifinin partlayışı baş verdi. Hakimiyyət orqanları hələ həftələr öncə ilkin araşdırma mərhələsində olan cinayət işi barədə elə əminliklə danışırdılar ki, guya onun günahının sübuta yetirildiyi, məhkəmə araşdırması mərhələsində ört-basdır edilməsinin mümkün olmayacağı, sübut və dəlillərin olduğu təsəvvürü yaranırdı.

Bütün hakim komanda əl altında olan mümkün vasitələrlə erməni cəmiyyətində belə fikir yayaraq guya Zakar Hovhannisyanın qətlinin üstünün açıldığı təsəvvürünü yaradırdılar. Yalnız Petrosyanın cəzasını müəyyən edəcək məhkəmə qərarının qaldığına inandırırdılar. Artıq aydındır ki, Paşinyanın tabeliyində olan Xüsusi İstintaq Komitəsi kifayət qədər sübutlar toplaya bilməyib. Buna görə də müstəntiq Petrosyanın həbs müddətinin uzadılması tələbi ilə məhkəməyə müraciət etməyib. Bu, Paşinyan hakimiyyətinin növbəti dəfə ictimaiyyəti manipulyasiya etdiyinə və əsassız olaraq Petrosyana qatil damğası vurduğuna sübutdur. Artıq Ermənistanda tələb edirlər ki, Petrosyanı ittiham edən xadimlər, başda Paşinyan olmaqla, ictimai şəkildə ondan üzr istəməlidirlər".



Politoloqun sözlərinə görə, həmin hadisələr zamanı doğrudan da insan tələfatı olub: "Bunun günhakarlarından biri də Paşinyan olub. İndiki Baş nazir bunu inkar edə bilməz. Çünki həmin hadisələrdə təqsirli bilinərək, ağır cəzaya məhkum edilib. Beynəlxalq təşkilatların basqısından sonra o, cəzasının hamısını çəkmədən azad edilib. Yəni Paşinyanın həmin hadisələrdə əlinin olduğu məhkəmə qərarlarında da öz əksini tapıb. Bu, yenilik deyil. Sadəcə, bunu xatırlatmaqla ona demək istəyirlər ki, həmin hadisələrdən istifadə edib siyasi rəqibləri sıradan çıxarmaq cəhdi alınan deyil, buna son qoymaq lazımdır. Yəqin ki, yaxın zamanlarda, xüsusilə də Rusiyanın təzyiqi ilə Paşinyan Köçəryanı da həbsdən azad etməyə məcbur qalacaq. Bununla da şou bitəcək".

*Məhəmmədəli QƏRİBLİ*

# Tramp ABŞ-ın İranla müharibəyə tam hazır olduğunu bəyan etdi



**ABŞ prezidenti Donald Tramp Səudiyyə Ərəbistanının milli neft şirkəti "Saudi Aramco"ya hücumun arxasında İranın dayandığına inandığını, lakin qəti bir nəticəyə gəlmək üçün araşdırmalar aparıldığını deyib.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, ABŞ prezidenti ölkəsinin müharibəyə hazır olduğu mesajını da verib.

"Saudi Aramco" obyektlərinə hücumun arxasında İranın durub-durmadığına dair sualı cavablandıran Tramp "Belə görünür. Tam olaraq nə baş verdiyini dəqiq öyrənə bilsək sizə söyləyəcəyik, araşdırmalar davam edir" deyib.

Tramp, eyni zamanda, İran prezidenti Həsən Ruhani ilə planlaşdırılan hər hansı bir görüşün olmadığını da qeyd edib.

İranla müharibə istəmədiyini, ancaq ölkəsinin döyüş təyyarələri və raketlər kimi ən yaxşı silah sistemlərinə sahib olduğunu ifadə edən Tramp ABŞ-ın müharibəyə tarixdə heç bir ölkənin olmadığı qədər hazır olduğunu deyib. Tramp ABŞ-ın İrana hücumunun mütənasib olacağını da bildirib.

# Yapon dənizində insident - Şimali Koreya gəmisi rus əsgərlərinə atəş açdı, Rusiya gəmini həbs etdi...




**Şimali Koreya gəmisi Yapon dənizində Rusiya sərhədçilərinə atəş açıb.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, hadisə nəticəsində üç rus əsgər yaralanıb.

Hadisədən dərhal sonra hərəkətə keçən Rusiya Federal Təhlükəsizlik Xidməti (FSB) Şimali Koreya gəmisini ələ keçirərək 21 ekipaj üzvünü saxlayıb.

# Əfqanıstan Prezidentinin çıxışı zamanı partlayışda 24 nəfər ölüb



**Əfqanıstanın Pərvan əyalətində Prezident Əşrəf Qəninin seçki kampaniyası çərçivəsində çıxışı zamanı partlayış törədilib. "Trend"in məlumatına görə, hadisə nəticəsində azı 24 nəfər həlak olub, 30-dan çox yaralı var.**

Hadisənin Prezidentin tərəfdarlarının olduğu yerdən hansı məsafədə baş verdiyi bildirilmir. Partlayışla bağlı hələlik məsuliyyəti üzərinə götürən olmayıb.

# Ermənistanda iki antikorrupsiya qurumu - Paşinyan "köçəryançı" hakimlərə qarşı təqibin yeni üsulunu tapıb...

**Ermənistanda yaxın vaxtlarda iki antikorrupsiya qurumu yaradılacaq. Onlardan biri vəzifəli şəxslərin, o cümlədən, hakimlərin əmlakını qiymətləndirəcək. Bu barədə keçirdiyi mətbuat konfransında Ermənistanın Baş naziri Nikol Paşinyan bildirib.**



## *Fikrət Sadıqov: "Paşinyanın guya bununla müstəqil məhkəmə sistemi yaratmaq istədiyi barədə səsləndirdiyi fikirlər əsassızdır"*

Sözügedən məsələ ilə bağlı Paşinyan bunları deyib: "Yüksəsk Məhkəmə Şurası heyəti antikorrupsiya strategiyası hazırlayıb ki, orada da vettinq prosesi təsvir olunur. Diqqətin daha çox məzmuna deyil, "vettinq" sözünə yönəldiyini başa düşdüyümüzdən, bu sözdən istidafə etməməyə qərar verdik. Lakin mexanizmlər antikorrupsiya strategiyasında var. Yaxın gələcəkdə iki antikorrupsiya qurumu yaradılacaq. Bunlardan biri hakimlərin və digər vəzifəli şəxslərin əmlaklarını qiymətləndirəcək. Digər komitə isə başqa qurumların peşəkar bacarıqlarının qiymətləndirilməsi ilə məşğul olmalıdır".

Paşinyan onu da qeyd edib ki, o, Ermənistanda məhkəmə sistemi ilə əlaqəli problemlərin təcili həll edilməsini aktual hesab edir. O iddia edib ki, guya bunları etməkdə məqsədi ölkədə müstəqil məhkəmə sistemi qurmaqdır: "Məqsədimiz sonda müstəqil məhkəmə sisteminə sahib olmaqdır ki, əvvəlki hakimiyyətdən asılı olan məhkəmə hakimiyyəti hökumətimizdən asılı olan məhkəmə sistemi ilə işləməsin".

Paşinyanın, əslində, bütün bunlarda məqsədi əvvəlki hakimiyyət dönəmində mövcud olan hakimləri təmizləməkdir. Çünki sözügedən hakimlərin indiki dönəmdə müstəqil fəaliyyət göstərməsi Paşinyana sərf etmir. O istəyir ki, məhkəmə hakimləri müstəqil yox, onun iradəsinə tabe olsunlar. İstənilən vaxt siyasi hakimiyyətin sifarişlərinə uyğun qərarlar çıxarsınlar.

Məsələyə münasibət

*"Qarşıdakı dövrdə məhkəmələrin işinə daha çox müdaxilə ediləcəyi gözlənir"*

bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, bütün bunları etməkdə Paşinyanın məqsədi odur ki, ona tabe olmayan, müstəqil fəaliyyət göstərən kadrlanı neytrallaşdırsın: "Xüsusən də məhkəmə hakimlərinin müstəqil fəaliyyət göstərməsi Paşinyanı çox narahat edir. Ona görə də məhkəmə hakimlərinə müxtəlif formada təzyiqlər edilir. Bununla bağlı müxtəlif mexanizmlər işə salınır. Bir ara Paşinyan tərəfdarlarını məhkəmələrə qarşı etiraz aksiyasına çağırdı. İndi də məhkəmələrin fəaliyyətinə nəzarətlə bağlı yeni qurum yaradır. İstənilən halda, Paşinyanın bu cür addımları qeyri-ciddi xarakter daşıyır. Sözügedən məsələdə məhkəmə hakimlərini Paşinyan özü üçün ciddi təhlükə hesab edir. Nəzərə almaq lazımdır ki, Konstitusiya Məhkəməsi Köçəryanın həbsinə qarşı çıxıb.

Paşinyanın guya bununla müstəqil məhkəmə sistemi yaratmaq istədiyi barədə səsləndirdiyi fikirlər əsassızdır. O heç vaxt istəməz ki, ölkədə müstəqil məhkəmə sistemi olsun. Əvvəlki hakimlərin indi onun iradəsinə tebe olmaması Paşinyanı narahat edən başlıca məsələdir. Hesab edirəm ki, qarşıdakı dövrdə Paşinyan hakimiyyətinin məhkəmələrin işinə daha çox müdaxilə edəcəyi gözlənir".

***Vidadi ORDAHALLI***

# Paşinyanın komandası zəncirvari istefalar dalğası ilə üz-üzə...

**Ermənistanın Baş naziri Nikol Paşinyan sentyabrın 16-da keçirdiyi mətbuat konfransında bildirib ki, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) 1,5 il əvvəl təyin olunmuş rəhbəri Artur Vanetsyan vəzifəsindən azad edilib. O əlavə edib ki, müvafiq sərəncam yaxın günlərdə imzalanacaq. Paşinyan deyib ki, bu qərar Vanetsyanla keçirilən müzakirələrdən sonra və MTX direktorunun razılığı əsasında qəbul olunub.**



## *Elman Nəsirov: "Mənim addımım" blokunda təmsil olunan partiyalar arasında bir sıra məsələlərlə əlaqədar kəskin ixtilaflar yaranıb"*

Hökumətdəki mənbəyə istinad edən yerli mətbuat xəbər verir ki, Paşinyan bu vəzifəyə dostu Vaqe Kazaryanı təyin edəcək.

MTX-nin rəhbəri A.Vanetsyanın sözlərinə görə, onun istefa qərarı "hazırkı və gələcək situasiyalarla bağlıdır". Həmin situasiyalara aydınlıq gətirməyən Vanetsyan belə bir şəraitdə öz qərarını dövlətə xidmət kimi qiymətləndirib. O əlavə edib: "Mənim istefam insanı yuxudan ayıldan bir addımdır və mənə "dayan" deyir".

Müəmmalı istefanı şərh edən Paşinyan isə bildirib ki, MTX direktorunun fəaliyyətini qiymətləndirə bilməz, çünki bu vəzifə ictimai müzakirələrdən kənarda qalmalıdır.

Erməni mətbuatı yazır ki, Ermənistanda "inqilab" komandası sürətlə parçalanır və bu, parlamentdəki "Mənim addımım" fraksiyasına da aiddir. Belə fikirlər var ki, istefalar davamlı olacaq. Bu arada Ermənistan müdafiə naziri David Tonoyan və ölkənin polis rəisi Valeri Osipyanın istefaya göndəriləcəyi deyilir.

Belə görünür ki, Ermənistanda güc strukturlarında başlayan istefaların davamlı olacağı gözlənir. Çünki Paşinyan komandasında ciddi fikir ayrılıqlarının olması və bunların getdikcə dərinləşməsi açıq şəkildə özünü göstərməkdədir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən millət vəkili Elman Nəsirovun sözlərinə görə, Ermənistan hakimiyyətində bundan sonra da istefaların davam edəcəyi ehtimalı yüksəkdir: "Dəfələrlə belə fikirlər səslənib ki, Paşinyan populist siyasətçidir. Eyni zamanda, onun siyasəti qeyri-müəyyənliklə xarak-

*"İstefaların davamlı olacağı gözlənir"*

terizə olunur. Bu həm daxili, həm də xarici siyasətə aiddir. Siyasətdə qeyri-müəyyənlik gec və ya tez öz çatlarını verməli idi. Xüsusilə də Paşinyanın daxili siyasətdə çox ciddi addımlar atacağı, iqtisadi inqilab edəcəyi ilə bağlı vədlər quru vəd olmaqdan başqa bir şey deyil. Reallıq isə bununla daban-dabana ziddir. Vəziyyət gör nə həddə gəlib çatıb ki, bir vaxtlar Paşinyanın müdafiə edən qüvvələr indi ona qarşı olan qüvvələrin sırasına qoşulur. Bu da Ermənistan Baş naziri üçün faciəvi bir prosesdir. Digər tərəfdən, "Qarabağ klanı" indi daha kəskin şəkildə Paşinyana qarşı çıxır. İki klan arasında ixtilaf çox ciddi şəkildə kəskinləşməkdədir. Bu reallıqda indi Ermənistanda tez-tez belə fikirlər səslənməkdədir ki, görəsən onun hakimiyyəti nə qədər çəkəcək? Artıq belə sualların verilməsinin özü belə onun üçün olduqca mənfi bir haldır. Artıq erməni mətbuatında tez-tez belə fikirlər səslənməkdədir ki, Paşinyanın "gəmisi" deyəsən batmaqdadır. Belə olan halda, onun ən yaxın ətrafı ondan uzaqlaşmaq barəsində qərar verir. MTX rəhbəri Artur Vanetsyanın istefasından sonra digər güc strukturlarında da istefaların olacağı ilə bağlı fikirlər səslənir. Bununla belə, parlamentdə Paşinyanı dəstəkləyən "Mənim addımım" blokunda təmsil olunan partiyalar arasında bir sıra məsələlərlə əlaqədar kəskin ixtilaflar yaranıb. Paşinyanın parlamentdəki silahdaşları belə, çox çətinliklə onu müdafiə edirlər. Bütün bunlar da onu göstərir ki, Paşinyan komandasında istefaların davamlı olacağı gözlənir".

***Vidadi ORDAHALLI***

# MDB məkanında etnik separatizm problemlərinin hələlik heç biri həll olunmayıb - Qarabağ problemi də həmçinin...

**Etnik münaqişələr, bir qayda olaraq, maddi və mənəvi resursların bölüşdürülməsinə nəzarət uğrunda gedən geosiyasi mübarizədir. Belə münaqişələr müxtəlif etnosların ayrı-ayrı nümayəndələri, sosial qruplar, habelə iki və ya daha çox etnosun qarşıdurması kimi özünü büruzə verir.**



***Yeganə Hacıyeva:** "Həmin münaqişələr müstəqil olan ölkələrdə ona görə yaradıldı ki, Rusiya ölkələrə məhz münaqişələr vasitəsilə nəzarət edə bilsin"*

Bu tip münaqişələrin "soyuq müharibə"nin bitməsi və SSRİ-nin dağılmasından sonra vüsət alması polietnik sosialist federasiyaların süqutu və həmin ərazidə meydana gələn gənc müstəqil dövlətlərdə guya yeni milli azlıq probleminin üzə çıxması ilə bağlıdır. SSRİ dağılandan sonra onun ərazisindəki bir sıra respublikalara etnik separatizmlə bağlı olan münaqişələr miras qaldı. Məsələn, Moldova Dnestryanı, Gürcüstan Cənubi Osetiya və Abxaziya, Azərbaycan isə Dağlıq Qarabağ kimi problemdən əziyyət çəkir. Maraqlıdır ki, mahiyyət etibarilə bir-birinə çox bənzər olan bu münaqişələrin hələ də heç biri öz həllini tapmayıb. Buna mane olan nədir?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həll edilməmiş münaqişələr regional əməkdaşlıq, ümumi etimad mühitinin yaxşılaşmasına və vaxtilə eyni ölkədə olmuş dövlətlər arasında daha sıx, qarşılıqlı əlaqələrin yaradılmasına əsas maneədir.

"Təəssüflər olsun ki, postsovet ölkələrində həll edilməmiş silahlı münaqişələr mövcuddur. Ekstremizm və təcavüzkar separatizm ərazi iddialarına əsaslanan dövlətlərarası münaqişələrin kök səbəbidir və bir çox hallarda dövlətlərin ərazi bütövlüyünün pozulmasına gətirib çıxarır. Beynəlxalq arenada təşəkkül tapan yeni reallıqlar regional sabitlik və təhlükəsizliyə olan təhdidlərə qarşı mübarizə məqsədilə, terrorizmə, separatçılığa, ekstremizmə, silahların və narkotiklərin qanunsuz dövriyyəsinə, habelə kibercinayətlər əleyhinə mübarizə sahəsində bütün dövlətlərin səmərəli əməkdaşlığını tələb edir. Biz o mövqedən çıxış edirik ki, beynəlxalq hüququn ümumən qəbul edilən prinsipləri və normalarına uyğun olaraq, münaqişələr tezliklə suverenlik, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığı əsasında həll olunsun.

*"Separatizmdən əziyyət çəkən ölkələr öz güclərinə problemi həll etmək istəyəndə məhz Rusiyanın təzyiqilə üzləşməli olurlar"*

Sözügedən münaqişələr ona görə həll olunmur ki, onların hamısında Rusiyanın barmağı var. Həmin münaqişələr müstəqil olan ölkələrdə ona görə yaradıldı ki, Rusiya həmin ölkələrə məhz münaqişələr vasitəsilə nəzarət edə bilsin. Separatizmdən əziyyət çəkən ölkələr öz güclərinə problemi həll etmək istəyəndə məhz Rusiyanın təzyiqilə üzləşməli olurlar.

Gürcüstan ərazi bütövlüyünü təmin etmək üçün hərbi əməliyyatlara başladı, amma Rusiya onu sərt cəzalandırdı, az qalmışdı ki, Tiflisi də tutsunlar. Biz Rusiyanın bu müdaxiləsini 2016-cı ilin aprel döyüşlərində də gördük".

Politoloqun sözlərinə görə, bu cür münaqişələrin həlli üçün, birmənalı olaraq, Rusiyanın marağı olmalıdır: "Çünki münaqişənin alovlandığı regionlara Rusiyanın təsir gücü danılmazdır. Təəssüflər olsun ki, Rusiya analoji münaqişələrin konservləşmiş halda qalmasında maraqlıdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan Hikmət Hacıyevin fikirləri üstündə tutarsız təbliğat oyunu qurur...

**Ermənistan KİV-i guya Azərbaycanın KTMT-yə müşahidəçi qismində üzv olmaq istəyinin onların təkidindən sonra baş tutmadığına dair təbliğat aparır. Bu xüsusda qeyd edirlər ki, guya Azərbaycanın belə bir niyyəti olub, lakin Ermənistan diplomatiyasının "uğurlu" addımlarından sonra bu mümkün olmayıb.**




***Hatəm Cabbarlı:** "Onlar bilirlər ki, Azərbaycanın qurumla ola biləcək hər hansı yaxınlaşma cəhdlərinə mane olmaq Ermənistanın siyasi iradəsi kənarındadır"*

Hətta Prezident Administrasiyasının rəsmisi Hikmət Hacıyevin səsləndirdiyi bəyanata da özünəməxsus rəy verməyə çalışırlar. Guya Azərbaycan əvvəl belə niyyətdə olduğunu bəyan edib və yalnız Moskvanın məsələyə müsbət reaksiya verməyini gördükdə bu fikrindən daşınıb. Qeyd edək ki, Azərbaycan heç vaxt rəsmi səviyyədə belə bir niyyətinin olduğunu bəyan etməyib. Həmin fikir millət vəkili Əli Hüseynov tərəfindən şəxsi fikir olaraq səsləndirilib və heç də Azərbaycanın rəsmi mövqeyini əks etdirməyib. Ermənistan KİV-i yazır ki, guya Hikmət Hacıyev bu imtinanı Azərbaycanın KTMT-yə üzv olan ölkələrlə olan ikitərəfli münasibətlərdə nə lazımdırsa, əldə edə bildiyi ilə əlaqələndirib.

Ermənilərin bu ucuz təbliğatı nəyə hesablana bilər?

Siyasət üzrə elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Paşinyan hakimiyyətə gələndən sonra Ermənistanın Rusiya ilə münasibətlərində ciddi gərginliyin olduğunu müşahidə etmək mümkündür: "Bu gərginliyin əsası Paşinyanın məhz KTMT ilə bağlı atdığı addımından sonra başladı. Həmin vaxt Paşinyan KTMT-nin Ermənistandan olan dönəm sədrini həbs etdirdi. Bundan sonra Azərbaycanın da həmin quruma üzv ola biləcəyi ilə bağlı məlumatlar dolaşmağa başladı. Ölkəmizin təhlükəsizlik doktrinasına baxdıqda məlum olur ki, Azərbaycan bu tip təşkilatlara üzv olmağı hədəfləmir. Bununla bağlı heç bizim rəsmi mövqeyimiz də olmayıb. PA rəsmisi Hikmət Hacıyevin bu məsələyə konkret münasibət bildirməsi erməni KİV-də geniş müzakirə edilir. Ermənilər Azərbaycanın təbii haqqı olan bir manevri edə biləcəyindən çox narahat idilər. Onlar bilməlidirlər ki, Azərbaycanın belə bir istəyi olarsa, bu, Ermənistan xaric, digər bütün dövlətlər tərəfindən məmnuniyyətlə qarşılanar. Azərbaycanın KTMT-yə üzv olan ölkələrlə münasibətləri olduqca yüksək səviyyədədir. Hətta Ermənistanın həmin ölkələrlə münasibətlərindən daha yüksəkdədir. Azərbaycan quruma üzv olan ölkələrlə yaxın hərbi əməkdaşlıq da edir. Maraqlıdır ki, KTMT-nin nizamnaməsinə dəyişiklik ediləndə Ermənistan buna yox demədi. Oradakı dəyişikliklərdə nəzərdə tutulur ki, KTMT-də bəzi ölkələr müşahidəçilik statusu ala bilərlər. Ermənistan Azərbaycanın da ora üzv ola biləcəyindən ehtiyatlanırdısa, onda niyə həmin dəyişikliyin lehinə səs verdi?"

Politoloqun sözlərinə görə, KTMT-nin hazırda daxilində yeganə arzuolunmaz ölkə kimi Ermənistan xarakterizə olunur: "Azərbaycanın son rəsmi münasibəti bundan ibarətdir ki, hələlik ölkəmizin həmin quruma üzv olmaq kimi niyyəti yoxdur. Ancaq önümüzdəki dönəmdə bölgənin təhlükəsizliyinin təmin olunması tələb etdikdə, bu, nəzərdən keçirilə bilər. İndiki anda isə KTMT Azərbaycanın təhlükəsizlik maraqlarına tam cavab verən təşkilat deyil. Ermənistan guya Azərbaycana KTMT-yə üzvlüklə bağlı mane olduğunu və ya gələcəkdə mane ola biləcəyini bəyan edir. Ancaq bu, Ermənistanın siyasi imkanlarını aşan bir iddiadır. Bu baxımdan da Ermənistan təbliğatının uydurduğu yalanlar heç nəyi dəyişmir, çünki reallıqdan tamamilə uzaqdır. Ermənistanın özünün potensialı elədir ki, o, KTMT daxilində əməkdaşlıq da qura bilmir. Ermənistanın bu məsələdə narahatlığı başadüşüləndir. Onlar bilirlər ki, Azərbaycanın qurumla ola biləcək hər hansı yaxınlaşma cəhdlərinə mane olmaq Ermənistanın siyasi iradəsi kənarındadır. Bu səbəbdən də öz daxili auditoriyasına hesablanan yalan informasiyalar yayırlar".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyanın siyasəti üzündən Qarabağ danışıqları dayanır, hərbi yol gündəmə gəlir...

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Ermənistan hakimiyyətinin atdığı addımlar işğalçı ölkənin problemi dinc yolla həll etmək niyyətindən hələ də çox uzaq olduğunu göstərir. Azərbaycan tərəfi isə İrəvanın danışıqlar prosesini uzatmasının artıq qəbuledilməz olduğunu bildirir və belə gedişlə danışıqların ümumiyyətlə dayandırılması istisna olunmur.**

Təbii ki, bu halda məsələnin hərbi həlli daha da aktuallaşacaq. Artıq bu xüsusda Azərbaycan rəsmiləri müvafiq xəbərdarlıqlar da edir.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycana yeni təyin olunan səfiri Ceyms Şarp ilə görüşündə səsləndirdiyi fikirlər də yuxarıda qeyd olunan qənaəti gücləndirir. Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini və İrəvanın danışıqları uzatdığını deyən nazir bildirib ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylərinə baxmayaraq, sülh danışıqları rəsmi İrəvan tərəfindən qəsdən yubadılır. Bu vəziyyətdə Azərbaycan rəsmiləri artıq danışıqların da əhəmiyyətinin aradan qalxdığını açıq bəyan edir. Prezident Administrasiyasının xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyevin bu səpkidə açıqlamaları da təsadüfi sayılmır. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşü məsələsini şərh edən Hikmət Hacıyev qeyd edir: "Nyu-Yorkda BMT Baş Assambleyasının növbəti sessiyası çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşünün keçirilməsi fikri var". Onun sözlərinə görə, bunu sadəcə görüş adlandırmaq olar: "Çünki Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesinə, gördüyümüz kimi, Ermənistan tərəfindən ciddi zərbələr vurulur və danışıqlar prosesinin pozulması üçün təxribatçı addımlar atılır. Bu baxımdan, qarşıdakı görüşdə də Azərbaycanın mövqeyi həmsədrlərə, Ermənistan tərəfinə, xüsusən də Ermənistan tərəfinin səsləndirdiyi bu destruktiv açıqlamaların fonunda çatdırılacaq". Xarici işlər naziri Elmar Məmmədyarov isə bildirir ki, Ermənistan rəhbərliyinin məsuliyyətsiz davranışı bölgədə gərginliyin artmasına xidmət edir.

ATƏT-in Minsk Qrupunun keçmiş həmsədri, Birləşmiş Ştatların Azərbaycandakı keçmiş səfiri Metyu Brayza isə Ermənistanın "168 jam" nəşrinə müsahibəsində qeyd edir ki, danışıqların dayanması və savaşın başlanması ən çox ermənilər üçün böyük zərbə olacaq. O bildirir ki, Ermənistan qarşısında güclü Azərbaycanın dayandığının fərqinə varmalıdır: "Ermənistanda hakimiyyət dəyişikliyindən dərhal sonra, hakimiyyətə gəlişin ilk mərhələsində danışıqlar prosesində bəzi müsbət dəyişikliklər nəzərə çarpırdı. Ölkə rəhbərləri və nazirlər səviyyəsində görüşlər, danışıqlar yenidən başlamışdı, müsbət dəyişikliklər var idi. Tərəflərin aylarla davam edən danışıqları nəticəsində cəmiyyətlərin sülhə hazırlanması və təmas xəttində atəşkəs rejiminin gücləndirilməsi ilə əlaqədar etimad yaradan tədbirlərin həyata keçirilməsi ilə bağlı bir neçə ay bundan əvvəl verilən bəyanat mənim üçün son illərdə ən vacib irəliləyişdir. Mən bilirəm ki, Bakının ən yüksək səlahiyyətliləri nizamlanma məsələsində Paşinyanla irəli hərəkət etmək istəyir, lakin hər zaman şübhə var - Paşinyan öz siyasi gücünü səmərəli şəkildə konsolidasiya edə biləcəkmi? Çünki keçmiş sistem ona qarşı işləyir və rəqabətlər, təzyiqlər davam edir. Buna görə də, hesab edirəm ki, bu məsələ hazırda irəliləyişi ləngidir və Paşinyana təzyiq göstərir. Bu yalnız indinin problemi deyil, ötən 20 il ərzində Ter-Petrosyan kəskin dəyişikliyə yaxın idi və böyük təzyiqlər altına düşdü. Bunu Ermənistan parlamentində baş vermiş hadisə izlədi.

Sarkisyanın hakimiyyət dövründən bir neçə il əvvəl də belə vəziyyət mövcud idi. Tərəflər o zaman kəskin dəyişikliyə yaxın idilər. Putin aprel döyüşlərindən sonra diqqətəlayiq təkliflər təqdim etmişdi, lakin bunu da Polis Post-Patrul alayının tutulması izlədi. Mənim fikrimcə, eyni şey hazırda da baş verir. Köçəryanın məhkəmə işi davam edir, Qarabağ qrupu hədsiz dərəcədə aktivdir. Hesab edirəm, ABŞ-dakı "Hay Dat Komitəsi"kimi dairələr onlara dəstək verir. "Hay Dat Komitəsi" münqaişəni nizama salmaq istəmir və biz nə zaman irəliləyiş əldə etməyə çalışsaq, o buna hər zaman qarşı çıxıb. Hər zaman antiermənı dalğasında olublar. Ken Xaçikyan Serj Sarkisyanı da xəyanətkar adlandırır. Hesab edirəm, eyni şey Paşinyanla da baş verir, bütün bunlarda yenilik yoxdur. İndi hər hansı sənədin və ya təkliflərin müzakirə olunub-olunmadığını bilmirəm. Mən ancaq bilirəm ki, 11 il əvvəl razılaşdırılmış "Madrid sənədi" bütün bu müddət ərzində bu və ya digər şəkildə danışıqlar masasında olub. Fikrimcə, "Madrid prinsipləri" Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ən əhatəli, məntiqli, ən yaxşı çərçivədir. Bu, Əliyev və Sarkisyan arasında əsas razılaşmadır, lakin onlar bu razılaşmanı sona çatdıra bilmədilər. Ən vacib məsələ Dağlıq Qarabağın son hüquqi statusunun referendumla müəyyənləşdirilməsi və eyni zamanda müvəqqəti statusa malik olmasıdır".

Brayza onu da qeyd edir ki, erməni tərəfi son dövrlərdə heç də reallığı əks etdirməyən açıqlamalar verir. Məsələn, erməni tərəfi Qarabağın Ermənistan olmasını qeyd edir və eyni zamanda Xankəndinin danışıqlar masasına qatılmasını istəyir: "Paşinyanın bu xüsusda bəyanatları bir-biri ilə ziddiyət təşkil edir, deyə bilərəm ki, bu nəzərə çarpıb. Dağlıq Qarabağ nümayəndələri əvvəllər danışıqlar prosesində iştirak edib. Ermənistanın ikinci prezidenti Köçəryanın dövründə bu dəyişdi, hazırda erməni tərəfi bu formatı yenidən dəyişdirmək istəyir və Azərbaycan buna razılıq vermir. Bugünkü reallıq budur ki, Qarabağ nümayəndələri bu danışıqlarda iştirak etmir. Bu reallığı dəyişmək istəyirsinizsə, yeni atəşkəs razılaşması istəyirsinizsə, bunun üçün nəsə verməlisiniz, bu, danışıqlar mexanizmidir. Düşünürəm, Azərbaycan hər zamankından daha yaxşı mövqe tutub. Ermənistan bunu nəzərə almalıdır". Brayza onu da qeyd edir ki, danışıqların dayanması və savaşın olması Ermənistan üçün böyük dağıntılara səbəb olacaq. Bu səbəbdən o, İrəvanın danışıqlarda daha maraqlı olmasını zəruri sayır. Əks təqdirdə, onun fikrincə, Ermənistan ciddi təlatümlərlə üzləşməli olacaq. Bunu erməni hərbi ekspert Van Hambardzumyan da təsdiq edir. O bildirir ki, danışıqların dalana dirənməsi genişmiqyaslı hərbi əməliyyatların başlamasına dair təhlükə yaradır. O qeyd edib ki, Ermənistanın daxili siyasi gərgin vəziyyəti sərhəd gərginliyinə də gətirib çıxara bilər, bu zaman isə aprel savaşı kimi müharibə ilə məsələ həll olunmayacaq: "Hərbi qüvvələrin böyük toplanması nəzərə çarpır. Bu, 2018-ci il inqilabı zamanı başlayıb". Erməni ekspert Azərbaycanda keçirilən genişmiqyaslı hərbi təlimlərə də toxunub: "Azərbaycanın planı Ermənistana eyni zamanda bir neçə istiqamətdən, o cümlədən də Naxçıvan tərəfdən hücum etməkdir. Naxçıvanda hərbi təlimlər davam edir və sərhədə çox yaxın yerləşir. Yəni hər zaman qüvvələrin kifayət qədər böyük toplanması nəzərə çarpır. Oradan Ermənistanın paytaxtına qədər uzaqlıq birbaşa xətlə cəmi 42 kilometrdir, Ermənistanın əsas strukturları isə İrəvanda yerləşir".

Xatırladaq ki, müdafiə nazirinin rəhbərliyi altında Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qisimləri, hərbi birlik və birləşmələrinin cəlb edilməsi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçirilir. Təlimlərə 10 min nəfərədək şəxsi heyət, 100-dən çox tank və digər zirehli texnika, 120 müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 20-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunub. Mürəkkəb şəraitdə, dağmeşə, qayalıq ərazilərdə və çətin radioelektron mübarizə mühitində keçiriləcək təlim zamanı ön və yandan keçmə dəstələrinin əsas zərbə qruplaşmaları, eləcə də, artilleriya, aviasiya və döyüş düzülüşünün digər elementləri ilə qarşılıqlı əlaqədə fəaliyyətin təşkili üzrə tapşırıqlar icra edilir. Bütün fəaliyyətlər döyüş atışlı mərhələlərdən ibarət olmaqla döyüş vəziyyətinə maksimal uyğun şəraitdə müxtəlif poliqon və təlim mərkəzlərində keçirilir. Erməni tərəfi isə təlimlərin danışıqların dalana dirəndiyi bir vaxta təsadüf etməsini ciddi narahatlıqla qarşılayır. Qeyd olunur ki, Bakı bununla danışıqlar variantını arxa plana atıb, güc yolundan istifadəyə doğru getdiyini aydın göstərir. "İrates" qəzeti yazır ki, Azərbaycan Qarabağ məsələsində nəticə istəyir və prosesi istənilən vaxt hərbi müstəviyə yönəldə bilər. Bu fikri erməni hərbi ekspert Astvatsatur Petrosyan da təsdiq edir: "Yeni təlimlər mühüm əməliyyat strategiyaları, əhəmiyyətli istiqamətlər üzrə hərbi-strateji bir təlimdir". Onun sözlərinə görə, müharibə qanunlarına görə, hərbi əməliyyatlardan əvvəl hərbi təlimlər keçirilir:

"Təlimlər adı altında qüvvələr cəmləşdirilir və təlimlər yavaş-yavaş 2-ci mərhələyə keçməklə müharibə şəklini alır. Bu vəziyyət istisna edilmir, hazır olmalıyıq, heç bir fikri rədd etməməliyik".

Xatırladaq ki, ordumuzun təlimləri hər dəfə Ermənistanda ciddi narahatlıqla qarşılanır. Halbuki, ordumuzun planlı surətdə keçirdiyi təlimlər barədə Müdafiə Nazirliyi həmişə əvvəlcədən xəbər yaymaqla ictimaiyyəti və beynəlxalq qurumları məlumatlandırır. Amma indi danışıqların dalana dirəndiyi bir vaxtda keçirilən təlimlər Ermənistanda daha böyük əndişə yaradır. Çünki real vəziyyət yeni Qarabağ savaşını istisna etmir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Qonşu Gürcüstanın NATO sıralarına qəbul olmaq niyyəti və bu istiqamətdə addımlar atması heç kimə sirr deyil. Elə NATO-nun bir sıra aparıcı üzvləri, o cümlədən ABŞ da Tiflisin bu niyyətinin reallaşması istiqamətində müvafiq addımlar atır. Hətta belə görünür ki, Gürcüstan ərazi bütövlüyü problemi yaşasa da, NATO-nun sıralarında onu bu şəkildə görmək istəyənlər də tapılır.**

# Gürcüstana növbəti Cavaxetiya zərbəsi...

Hətta bu günlərdə NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussen Gürcüstan hakimiyyətini Abxaziya və Cənubi Osetiya olmadan alyansa qoşulmağı düşünməyə dəvət edib. Rasmussen Tiflisdə keçirilən "İndi nə?" beynəlxalq konfransda çıxışı zamanı bildirib ki, Gürcüstanda ölkənin Abxaziya və Cənubi Osetiya bölgələri olmadan NATO-ya üzvlük məsələsi müzakirə olunmalıdır. ABŞ dövlət katibi Mayk Pompeo da bildirir ki, ABŞ Gürcüstanın NATO-ya qoşulması istiqamətində işlər aparır: "Gürcüstanın NATO-ya üzv olması üçün işləyirik". Gürcüstanın baş naziri Georgi Qaxariya da bildirir ki, Gürcüstan Avropa Birliyi və NATO-ya inteqrasiya etməlidir. Xatırladaq ki, bu xüsusda Qaxariya parlamentə hökumət proqramını təqdim edib. Proqramın əsas istiqamətləri Gürcüstanın AB və NATO-ya inteqrasiyası, demokratiyanın inkişafı, iqtisadi tərəqqi, ərazi bütövlüyü və suverenliyin müdafiəsidir. Gürcüstan parlamentinin eks-spikeri Nino Burcanadze isə bildirir ki, Gürcüstan NATO-ya üzv olmaqla Abxaziya və Cənubi Osetiyanı tam itirəcək:

"Mən hər zaman demişəm ki, bizim NATO-ya üzvlüyümüz xəbəri gündəmə gəlsə, Abxaziya və Cənubi Osetiyanı unutmalıyıq. Hazırda bu bizə təklif olunur. Bizim bu alyansa üzvlüyümüz faciəvi nəticələrə səbəb olacaq. Abxaziya və Cənubi Osetiyada Rusiya hərbi bazaları yerləşir. NATO-ya üzvlük ərazimizdə alyansın hərbi bazalarının yerləşdirilməsi demək olacaq. Bu qüvvələr arasında istənilən konflikt Gürcüstanı məhv edəcək. Biz bütün ölkələrin qaçdığı hər şeyi edirik, Gürcüstanı iki filin qarşıdurma yerinə çeviririk". Amma görünür ki, Gürcüstanın NATO üzvlüyü təkcə Abxaziya və Cənubi Osetiya problemi ilə məhdudlaşmayacaq. Bu vəziyyətdə Cavaxetiya probleminin yenidən qabarması da gündəmdədir. "Cavaxk" vətənpərvər birliyinin sədri, Serj Sarksiyanın sədri olduğu Respublika Partiyasının üzvü Şirak Torosyan belə bir vaxtda maraqlı açıqlama verərək bildirib: "Gürcüstan NATO-ya üzv olduğu təqdirdə erməni etnosu türk qoşunlarının orada mövcudluğuna dözməyəcək". Onun dediklərindən belə bəlli olur ki, Gürcüstanın NATO-ya üzvlüyündən sonra bölgədə türk qoşunları yerləşdirilə bilər və bu baş verəcəyi təqdirdə Cavaxetiya ermənilərinin müstəqillik tələbilə çıxış edəcək:

"Gürcüstanın NATO-ya üzvlüyü qlobal problemdir. Yeni Rusiya-NATO qarşıdurması ehtimalı ortaya çıxacaq və Rusiya-Gürcüstan əlaqələrinin gərginləşməsi müşahidə olunacaq. Lakin türk qoşunlarının təmsil edilməsi tamamilə başqa platformada nəzərdən keçirilir". Onun sözlərinə görə, əlbəttə, Gürcüstanın öz problemləri mövcuddur və NATO-ya üzv ola bilər: "Lakin hər hansı vəziyyətdə erməni etnosu türk qoşunlarının orada mövcudluğuna dözməyəcək".

Şirak Torosyan daha sonra qeyd edib ki, erməni separatizmini proqnozlaşdırmır, lakin türk qoşunları ərazidə yerləşdiriləcəyi təqdirdə ciddi üsyan olacaq: "Mən buna şübhə etmirəm".

Şübhə yox ki, NATO-ya israrla can atan Gürcüstana qarşı yeni Qarabağ təhdidinə bənzər Cavaxetiya problemi həm də ən çox Rusiyaya lazımdır.

Qeyd edək ki, hələ 2014-cü ildən gürcü mətbuatı Cavaxetiyada ermənilərə rus pasportları paylandığı haqda informasiya yaymışdı. Ümumiyyətlə, Gürcüstan ermənləri bir neçə ildir Rusiya pasportları alır və bələlərinin sayı durmadan artır. Bu prosesdə İrəvan da Rusiyadan gələn sifarişləri can-başla yerinə yetirir. Çünki hazırda Rusiyanın siyasəti Ermənistanın siyasəti ilə üst-üstə düşür. Məsələ burasındadır ki, Moskvanın niyyəti Tiflisə təzyiq üçün istədiyi vaxt Ermənistan tərəfdən Cavaxetiyaya hərbi müdaxilə təşkil etməkdir ki, bunda da məqsəd, guya Cavaxetiyada Rusiya vətəndaşlarını müdafiə etməsinə dair fon yaratmaqdır. Beləliklə, Abxaziya və Cənubi Osetiyadan sonra Moskva Cavaxetiya vasitəsilə də Tiflisə təzyiq imkanları əldə etməyə çalışır. Bununla da real vəziyyət Rusiyanın Gürcüstanı əzmək üçün daha çox vasitəyə malik olduğunu göstərir.

Hazırda Cavaxetiyada ermənilərə ən böyük dəstəyi Ermənistan kəşfiyyatı verir. Erməni kəşfiyyatı insanlar arasında hay-küy yaratmağa və istənilən halda onları Gürcüstandan soyutmağa çalışır. Bu xüsusda onlar Rusiya tərəfi ilə sıx işbirliyi qurub. Bu ərazidə 250 min erməni yaşayır. Cavaxetiyada əhalinin 55%-ni təşkil edən ermənilər hakimiyyətdən narazıdır və onlar hər an təxribat törətməyə də hazırdır. Cavaxetiya əhalisinin silahalanması da ciddi təhdid kimi göstərilir. Burada aparılan vaxtaşırı əməliyyatlarda hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən çoxlu sayda silah və döyüş sursatı yığılır.




Qeyd edək ki, Cavaxetiya probleminin qabarması və bununla Gürcüstanın əzilməsi isə Azərbaycanın maraqlarına cavab vermir. Çünki bu ölkə, yuxarıda qeyd olunduğu kimi, Azərbaycan üçün əsas tranzit məkandır. Hazırda Rusiya separatçı ocaqlar vasitəsilə burada istədiyi siyasəti həyata keçirir. Xatırladaq ki, 2008-ci ildə Rusiya və Gürcüstan arasında kiçik müharibə baş verdi və bu, Cənubi Osetiya və Abxaziya regionlarının Gürcüstandan ayrılması ilə nəticələndi. Moskva məqsədinin rusdilli əhalini qorumaq olduğunu bildirsə də, əhalinin çoxu osetin və abxaz dillərində danışanlardır. Ancaq çoxları Rusiya pasportuna sahibdir və Tiflisdəki Gürcüstan hökumətinə qarşı çıxır. İndi eyni ssenari ermənilərin kompakt yaşadığı Cavaxetiyada da reallaşmaq üzrədir. Xatırladaq ki, Ermənistan özü də dəfələrlə Cavaxetiya regionunda yaşayan erməni əhalinin Gürcüstan hakimiyyəti tərəfindən təzyiqlərə məruz qalmasına dair ittihamlarla çıxış edib. Ermənilərin fikrincə, bu ərazilər əslində Gürcüstan ərazisi deyil. Dünya erməniləri də hesab edir ki, vəziyyət belə olacağı təqdirdə Gürcüstan hakimiyyətinin gedə biləcəyi yeganə yol Samsxe-Cavaxetiyaya muxtariyyət vermək və bu regionda erməni dilini ikinci dövlət dili elan etməkdir. Lakin rəsmi Tiflis buna qarşı çıxır.

Buna rəğmən, ermənilər Rusiyadan aldıqları dəstəklə məkrli niyyətlərini burada reallaşdırmaqda maraqlı tərəf olaraq qalır. İndi isə Gürcüstanın NATO-ya üzvlük niyyətindən istifadə etməyə çalışan ermənilər bu məsələdə yaranmış vəziyyəti öz xeyirlərinə yönəltməyə çalışır. Bunun üçün onların hətta Rusiya ilə işbirliyini möhkəmləndirdiyi də məlumdur.

***Tahir TAĞIYEV***

**Səudiyyə Ərəbistanının neft obyektlərinə hücumdan sonra dünyanın böyük narahatlıqla izlədiyi məsələlərdən biri bunun barəsində çoxdan bəhs edilən ABŞ-İran savaşına yol açıb-açmayacağıdır. Pentaqondan yayılan xəbərlərdən belə bəlli olur ki, əslində, ABŞ aktiv savaşa ciddi hazırlıq görür.**

# Səudiyyə neftinin vurulması İran-ABŞ toqquşmasını sürətləndirir

ABŞ müdafiə naziri Mark Esper bildirir ki, ölkəsi tərəfdaşları ilə birgə Səudiyyə Ərəbistanının neft obyektlərinə hücuma qarşı cavab tədbirləri hazırlayır: "ABŞ hərbçiləri tərəfdarları ilə birgə çalışır ki, bu görünməmiş hücuma qarşılıq versin və İran tərəfindən pozulan dünya nizamı qaydalarını qorusun".

"The Wall Street Journal" da ABŞ kəşfiyyatına istinadən yazır ki, sentyabrın 14-də Səudiyyə Ərəbistanının neft obyektlərinə hücumu Yəməndə fəaliyyət göstərən husi qruplaşması deyil, birbaşa İran həyata keçirib. Qəzetin yazdığına görə, Səudiyyə ərazisində cəmi 19 hədəf vurulub. İran bu məqsədlə 20-dən çox zərbə pilotsuz təyyarəsi və xeyli raket istifadə edib. Analoji məlumatı ABŞ kəşfiyyatına istinadən "ABC News" telekanalı da yayıb. İran hakimiyyəti Abkaik və Xurays neft emalı zavodlarının vurulması ilə nəticələnən hücumda əli olduğunu qəti inkar edir. Bundan əvvəl Yəməndə İrandan dəstəklənən "Ənsar Allah" şiə qruplaşması hücuma görə məsuliyyəti üzərinə götürmüşdü və Səudiyyənin neft obyektlərinə 10 pilotsuz təyyarə ilə hücum etdiklərini açıqlamışdı. Lakin ABŞ dövlət katibi Maykl Pompeo dərhal bu bəyanatı şübhə altına alıb, hücuma görə İranı günahlandırıb. Yüksək rütbəli ABŞ rəsmisi "The Wall Street Journal"a bildirib: "Bu hücumu İran edib. Husilər eləmədikləri işə görə məsuliyyəti üzərlərinə götürürlər". Beynəlxalq ekspertlər də peyk görüntülərini təhlil edərək hücumun husilər tərəfindən həyata keçirildiyini şübhə altına alır. Hücumun ardınca çəkilən peyk görüntülərinə əsasən neft zavodlarına ciddi ziyan dəyib. Belə ki, neft emalı zavodlarının mühüm komponenti olan "stabilləşdirici qüllələr"dən bir neçəsi dağıdılıb. Boston beynəlxalq münasibətlər institutundan Coşua Şifrinson deyir: "Bu hücumun arxasında kim dayanırsa dayansın, o nə elədiyini yaxşı bilib". Elə bundan sonra ABŞ İrana qarşı hərbi əməliyyatların hazırlığına start verib. ABŞ müdafiə naziri Mark Esper buna məcbur olduqlarını bildirib. İran isə ABŞ-a layiqli hərbi cavab verməyə hazır olduğunu bəyan edib.

Rusiyanın "rosbalt.ru" portalı da yaranmış vəziyyətdə savaşın qaçılmaz olacağını yazır: "Çağdaş dünyada uğurlu hücumlar "ucuz və acıqlı" baş verir. Sentyabrın 14-ə keçən gecə Səudiyyə Ərəbistanının iki böyük neft emalı zavodu qəfil hücuma məruz qalıb. Hücum buna gətirib ki, Rusiya və ABŞ-la yanaşı dünya bazarlarına üç ən böyük neft tədarükçüsündən biri olan bu ölkədə neft hasilatı ikiqat azalıb. Bundan başqa, ölkənin şərqində, Əbkaik və ər-Riyaddan şərqdə Hurəysə bölgələrində "Saudi Aramco" dövlət neftqaz şirkətinə məxsus müəssisələrdə yanğınlar başlanıb. Bundan sonra Səudiyyə Ərəbistanı və ardınca ABŞ da bu hücumun təşkilində, hətta əsla husiləri deyil, çoxlarının bu üsyançı hərəkatın baş sponsoru saydığı İran hökumətini ittiham edib. Heç kim bu kontekstdə Rusiyanın adını çəkməyib, amma yəqin ki, Kremlin Yəməndəki marksçılarla əlaqəsi qalır.

Baş verənlər Rusiya üçün bütövlükdə yaxşı xəbərdir. Birincisi, neft tədarükünə qısamüddətli müqavilələrin qiymətləri artıq bazar ertəsi günü ticarət başlandıqdan sonra yuxarı sıçrayıb. Bunun ardınca avro və Amerika dollarına nisbətdə rublun mübadilə kursu da gözəçarpar dərəcədə yüksəlib. Şəxsən prezident Trampın İrana və onun neft yataqlarına zərbə imkanı haqda dumanlı eyhamları daxil olmaqla Vaşinqton və Tehranın davam etdirdiyi davakar qarşılıqlı bəyanatlar nəzərə alınsa, çox ehtimal ki, dünyanın enerji daşıyıcıları bazarları fırtına qoparmağı davam etdirəcək. Deməli, həm neft qiymətlərinin, həm də rublun kursunun bundan sonrakı artımı təmin olunub.

Və bu, Fars körfəzində inidki kəskinləşmədən Rusiyanın yeganə qazancı deyil. Vladimir Putin neft qiymətlərinin sıçradığı və İran və Amerikanın xarici siyasət ritorikasının yenidən kəskinləşdiyi məhz 16 sentyabrda Ankaraya gəlib və orada yüksək səviyyəli Türkiyə-Rusiya-İran sammitinə qatılıb. Onun mövzusu birinci növbədə Suriyanın nəzərdə tutulduğu "Yaxın Şərqdə münaqişələrin həlli üçün daimi sabit mexanizm qurmaq" idi. Və burada da, sözsüz, uğur var. ABŞ-la münasibətlərdə gərginliyin kəskin çoxaldığı şəraitdə şübhə etmək olar ki, iranlılar Suriyada iştirak və nüfuz məsələsi üzrə daha üzüyola olarlar. Başlıcası - belə əlverişsiz məqamda Moskva ilə dalaşmamaq və hərbi münaqişə halında onun özünü, müttəfiq kimi olmasa da, heç olmasa neytral tərəf kimi aparacağına əmin olmaqdır.

Nəticədə husilər bu təxribata gerçəkdən kimin itələdiyi aydın deyil, amma bütün "zərbələr" İrana sarı uçur, şirin qoğallar isə Rusiyaya qalır. Tehran indi ABŞ-a xəbərdarlıq etməyə məcburdur ki, Amerikanın bir çox bazası və aviadaşıyıcıları İran raketlərinin çatdığı zonada yerləşir - onlar İslam Respublikasının ərazisindən iki min kilometr radiusda yerləşirsə, onlara zərbə vurula bilər.

İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) hava-kosmik güclərinin komandanı, general Əmirəli Hacızadənin savaşın heç kim gərək olmadığı haqda bəyanat verərək ağzından belə bir söz qaçırması faktı heç kimi aldatmamalıdır. Savaş deyilsə də, sadəcə, durumun kəskinləşməyi təkcə Rusiyaya əlverişli deyil. Məsələn, Səudiyyə Ərəbistanının neft emalı zavodlarındakı problemdən Rusiyadan savayı amerikalılar da udurlar. ABŞ Donald Trampın dönəmində neftin ən böyük ixracatçısı olduqdan sonra Fars körfəzindəki qarışıqlıq üzündən onun gəliri çoxalır. Belə ki, bu bölgənin yenidən əhatəli hərbi münaqişə həddində olmağından mənfəətdarlar bəs edincədir. Və hətta nə İran hökumətinin, nə də Trampın özünün bunu indi başlamaq istəmədiyini fərz etsək də, hər şey onlardan asılı deyil. ABŞ-ın özü deyil, bölgədəki müttəfiqləri - elə həmin Səudiyyə Ərəbistanı - istənilən an oyuna girə bilər. Bu zaman da böyük savaşdan yayınmaq praktik mümkün olmayacaq. Hadisələr də elə buna doğru gedir".

***Nahid SALAYEV***



**"Anamın qana ehtiyacı var. 3-cü qrup mənfi rezuslu olduğuna görə çətin tapılır. Donorluq etmək istəyənlərdən xahiş edirik ki, ………. nömrələrlə əlaqə saxlasınlar". Bu tip çağırışlara və xahişlərə tez-tez sosial şəbəkə, xəbər saytlarında rast gəlirik. Kiminsə sağalması üçün ona filan qrup üzrə qana ehtiyac olduğu barədə məlumat yayılır.**

# Sosial şəbəkələrdə "qan alverçiləri" şəbəkəsi formalaşır...



***Fuad Əsgərov:** "Bəzi şəxslər insanların humanistliyindən istifadə edib sosial şəbəkədə "təcili qan lazımdır" çağırışı ilə elan paylaşırlar"*

***Adil Qeybulla:** "Qanın və orqanların satılması həmişə kriminala yol açan ünsürlərdir"*

Eyni qanı daşıyan insan da bir insanın sağalıb həyata qayıtması üçün sosial şəbəkə elanında qeyd olunan nömrə ilə əlaqə saxlayıb donorluq etməyə razı olduğunu bildirir.

Qeyd edək ki, əvvəllər daha çox təmənnalı, yəni pul müqabilində donorluq edənlər çox idisə, hazırda könüllü yardım etmək istəyənlər onları üstələməkdədir. Dünyanın bir çox ölkəsində qan donorluğu üçün pul kompensasiya verilməsi təcrübəsi unudulmaqdadır. Donora hansısa suvenir hədiyyə edilir, ya da yeməyə qonaq edilir. Nəticə olaraq, hər il dünyada 108 milyon doza qan toplanır. Ancaq ölkəmizdə vəziyyət fərqlidir. Məlumatlara görə, sosial şəbəkələrdə qana ehtiyac olması haqqında yayılan elanların arxasında qan alverçiləri dayanırlar. Bu işlə məşğul olanlar insanların humanistliyindən istifadə edib ondan lazım olan qanı alırlar. Daha sonra həmin qanı travma keçirmiş, vəziyyəti ağır olan xəstəyə pul müqabilində satırlar.

Belə olan halda, sosial şəbəkələrdə kimsə qan lazımdır tipli elan yazarsa, onun çağırışı ciddi qəbul olunmur.

Maraqlıdır, hər il ölkədə Aşura günündə, eləcə də ayrı-ayrı dövlət qurumları, təşkilatlar tərəfindən qanvermə aksiyaları keçirilir. Bəs nə üçün insanlara qan lazım olanda tapılmır? Bu tip elanların yayılmasında məqsəd nədir?

"Qan Donorları Assosiasiyası" İctimai Birliyinin sədri Fuad Əsgərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bəzi şəxslər insanların humanistliyindən istifadə edib sosial şəbəkədə "təcili qan lazımdır" çağırışı ilə elan paylaşırlar. Bu tip elanlara inanmaq lazım deyil. Birlik olaraq elan verən şəxsin həqiqətən həmin qana ehtiyacının olub-olmaması barədə araşdırma aparırıq. Mərkəzi Qan Bankı qan ehtiyatının toplanması və köçürülməsi ilə məşğul olan yegane müəssisədir".

F.Əsgərov onu da əlavə etdi ki, irsi qan xəstəliklərindən əziyyət çəkən şəxslərə hər 15 gündən bir qan köçürülməlidir: "Tək irsi qan xəstəliklərindən əziyyət çəkənlərə deyil, bir sıra xəstəliklər var ki, onlara da qan köçürülməlidir".

Professor, tibbi ekspert Adil Qeybulla qeyd etdi ki, başqalarının həyatını xilas etmək dərəcəsində göstərilən yardımlardan biri də qan donorluğudur. Donorluq öz qanının və ya qan komponentinin ehtiyacı olan insanlara könüllü verilməsidir. Qan travma almış, doğuş, cərrahi əməliyyat keçirmiş xəstələrə vacibdirsə, hemofiliyalı, talassemiyalı, leykozlu xəstələr üçün hər zaman həyati əhəmiyyət kəsb edir: "Xəstəxanalarda qanın pulla satılması yolverilməzdir. Donorlara hansısa sosial müdafiə çərçivəsində dövlət tərəfindən köməkliklər ola bilər. Amma qanın pulla satılması təcrübəsi Azərbaycan reallığında düzgün deyil. Ümumiyyətlə, qanın və orqanların satılması həmişə kriminala yol açan ünsürlərdir. Cəmiyyətdə şüur səviyyəsi, mədəni səviyyə artdıqca, mütəşəkkil səviyyəyə çatdıqda könüllü qan verənlərin də sayı artacaq".

Həmsöhbətimiz onu da vurğuladı ki, donorluq həm də insanlarda mərhəmət hissi formalaşdırması baxımından müsbət tendensiyadır. Mərkəzi Qan Bankı qanköçürmə işinin təsadüfi əllərə keçməməsi baxımından çox vacibdir. Beləliklə, həm də yayılan virus və digər xəstəliklərin başqa xəstələrə keçməsinin qarşısını alır. Orada donorların verdikləri qan yoxlamadan keçirilir və nəzarət edilir: "Qan vermək üçün donorun orqanizmi sağlam olmalı, qanın tərkibində infeksiyalar olmamalıdır. Bununla yanaşı, qanın tərkibindəki hemoqlabinin normada olması da vacib amillərdən biridir. Qeyd edim ki, anemiyası olan şəxslər, hamilə qadınlar, xroniki xəstəlikdən əziyyət çəkənlər donor ola bilməzlər".

***Günel CƏLİLOVA***

---

**Bu günlərdə 40 ton yararsız, ölü heyvan ətini satmağa hazırlaşan "Leş Tofiq" və dəstəsi ifşa edildikdən sonra qida təhlükəsizliyi məsələsi bir daha gündəmə gəldi. Bu şəbəkə vasitəsilə "Leş Tofiq" ləqəbli Alıbəy Rzaxanov rayonlardan mənşəyi məlum olmayan, qidaya yararsız, ölmüş heyvan ətlərinin əsasən gecə saatlarında daşınmasını, emal edilməsini, satışa çıxarılmasını təşkil edə bilibsə, deməli, yararsız ət müxətlif iaşə obyektlərinə, burada isə müştərinin önünə qədər gəlib çıxıb, ya dönər şəklində, yaxud da hansısa yeməyin tərkibində.**

# İfşa olunmuş "Leş Tofiq"in dönər bazarında qiymətlərə həlledici təsir imkanında olması təsdiqlənir...



***Eyyub Hüseynov:** "Həqiqətən də "leş mafiyası" ilə dönərxanalar arasında əlaqə var"*

*"Bu cür yararsız ət məhsulları nəinki dönərxanalara, şadlıq evlərinə, müəyyən kafelərə də aparılır"*

Təbii ki, bununla bağlı hüquq-mühafizə orqanlarının apardığı araşdırma daha dəqiq danışmağa imkan verəcək. Ancaq aşkarlanan fakt yararsız, mənşəyi məlum olmayan ət probleminin hələ də qaldığını göstərir.

Burada diqqətçəkən maraqlı məqam ondan ibarətdir ki, "Leş Tofiq" ləqəbli Alıbəy Rzaxanov həbs edildən sonra dönərxanalarda dönərin qiyməti bir qədər qalxıb. Xüsusən də qiyməti ucuz satılan dönərlərin qiymətində artım var. Məsələn, 1 manata satılan dönər indi 1 manat 40 qəpiyə, 1 manat 40 qəpiyə satılan dönər 1 manat 70 qəpiyə satılır. Bu bir daha onu sübut edirmi ki, həqiqətən də indiyə qədər bəzi dönərxanalarda satılan ucuz dönərlər məhz yararsız heyvan ətindən hazırlanıb?

Məsələyə münasibət bildirən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, dönərxanalara yararsız ətin verilməsi yeni deyil: "Mən 22 ildir "leş mafiyası" ilə vuruşuram. Beş il bundan əvvəl 4-cü mikrorayonda gecələr onların leşi necə təmizləyib ətə qarışdırdığını görmüşəm. Gecə saat üçdə başıma xüsusi papaq keçirib getdim ora. Məni görən kimi bir-birinə işarə verib oradan məni uzaqlaşdırdılar. Bir sıra qurumlara bununla bağlı müraciət etdim. Yalnız polis müraciətimə cavab olaraq bu işi araşdırmağa başladı. Digər qurumlar bunun üzərinə getmədi. Dəfələrlə Sabirabad rayonunun Xəlfəli kəndində olan Əlifxan adlı şəxsə sifariş göndərmişəm ki, bu pis əməllərdən əl çək. Bildiyim qədər, sözügedən şəxs indi həbsdədir. Deməyim odur ki, həqiqətən də "leş mafiyası" ilə dönərxanalar arasında əlaqə var. Ucuz dönərlər məhz bu cür yararsız ət məhsullarından hazırlanır. Daxili İşlər Nazirliyinin "Leş Tofiq" ləqəbli Alıbəy Rzaxanovla bağlı əməliyyatını çox yüksək qiymətləndirirəm. Fikrimcə, bu cür yararsız ət məhsulları nəinki dönərxanalara, şadlıq evlərinə, müəyyən kafelərə də aparılır. Yaxşı olardı ki, Qida Təhlükəsizliyi Agentliyi bu cür ətlərə tələbin haradan gəldiyini geniş araşdırsın. Daha sonra onu cəmiyyətə açıqlasın. Ölkənin oxunan qəzeti olan "Bakı-Xəbər" vasitəsilə deyirəm, din xadimləri, bələdiyyələr belə hallara qarşı göz yummamalı və bunu qınamalıdırlar. Ümumən cəmiyyət bu məsələdə ayıq-sayıq olmalıdır. Ən başlıcası, bu işlə məşğul olanlar sərt cəzalandırılmalıdırlar".

***Vidadi ORDAHALLI***

**Bu gün Azərbaycanda boşanmaların statistikasına baxanda acınacaqlı halın şahidi oluruq. Məhkəmələrdə 10 işdən yeddisi boşanmalarla bağlıdır. Məhkəmələr boşanmaların qarşısının alınması üçün ən yaxşı halda bir addım atır ki, bu da tərəflərə üç ay müddətinə barışıq verilməsidir. Əksər hallarda boşanmağı qarşısına məqsəd qoyanlar onlara verilmiş 3 ay bitəndən sonra nikahlarına son verirlər.**

# Mediasiya xidməti boşanmaların say artım prosesinə necə təsir göstərə bilir...

## *Əlimməmməd Nuriyev: "Boşanmalarla bağlı qanunvericilikdə hər hansı dəyişiklik etməklə problemin həllini tapacağını gözləmək lazım deyil"*

Boşanmalar günü-gündən artdığı üçün, bu problemin qarşısının alınması məqsədilə 2019-cu il aprelin 3-də Prezident İlham Əliyev "Mediasiya haqqında" Qanunun tətbiqinə dair Fərman imzalayıb. Beş fəsil və 39 maddədən ibarət "Mediasiya haqqında" Qanun mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətləri tənzimləyir. Bununla yanaşı, mediasiyanın məqsədlərini, prinsiplərini, həyata keçirilməsi qaydalarını və mediatorların statusunu müəyyən edir.

Qeyd etdiyimiz kimi, boşanmaların statistikası sürətlə artır. Dövlət Statistika Komitəsinin yaydığı məlumatda qeyd olunur ki, 2019-cu ilin 7 ayı ərzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən 10 000-ə yaxın boşanma halı qeydə alınıb.

Bu dövr ərzində boşanma ən çox Bakıda qeydə alınıb. Paytaxtda 2508 nikahın pozulması halı qeydə alınıb. Son 6 ay ərzində Ağdamda 210, Masallıda isə 176 boşanma hadisəsi qeydə alınıb.

Boşanmaların artması səbəbi kimi xarakter uyğunsuzluğu, övladın olmaması və kənar müdaxilələr olduğu deyilir. Bununla birlikdə sürətlə şəhərləşmə prosesi də ailələrin dağılmasına təsir göstərən amillərdəndir.

Ekspertlər bildirirlər ki, nikahın pozulmasının əsas səbəblərindən biri də vətəndaşların psixoloji cəhətdən hansısa savada malik olmamasıdır.

Vətəndaşlar isə boşanmaların sayının artmasına səbəb kimi gənclərin ailə həyatına hazır olmadan nikaha girmələrini göstərirlər. Boşanmaların qarşısını almaq üçün aidiyyatı dövlət qurumları müəyyən proqramlar icra edirlər.

Konstitusiya Araşdırmalar Fondunun rəhbəri Əlimməmməd Nuriyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, boşanmaq üçün məhkəmələrə müraciət edənlərin sayı artmaqda davam edir: "Boşanmaların qarşısını almaq üçün standart yanaşma tətbiq olunmamalıdır. Boşanmanın səbəbi araşdırılmalıdır. Burada xasiyyətlərin uyğun gəlməməsi, sosial problemlərin olması, sonsuzluq və digər sıxıntılar ailənin dağılmasına səbəb olur. Zənnimcə, bunlar boşanmaq üçün səbəb deyil. Bu səbəbdən də boşanmaq üçün əsl səbəblər araşdırılmalıdır. Bununla tək məhkəmələr deyil, vətəndaş cəmiyyətləri də məşğul ola bilər. Vətəndaş cəmiyyətləri sorğular vasitəsilə cütlüklərin nə səbəbdən izdivaca son qoymaq istədiyini müəyyən etməlidirlər".

Həmsöhbətimiz boşanmaların ən çox qeydə alındığı bölgələrin adını da açıqladı: "Əsasən paytaxt Bakıda boşanmanın daha çox qeydə alındığı deyilir. Ancaq bölgələrdə də bu problem qabarıq vəziyyətdədir. Boşanma o halda məhkəməyə çatmalıdır ki, bunun geri dönüşü olmasın. Məlumdur ki, məhkəmələr ən yaxşı halda Ailə Məcəlləsinin 20.2-ci maddəsinə görə, tərəflərdən birinin nikahın pozulması haqqında razılığı olmadıqda, ər-arvadın barışması üçün 3 ay müddət müəyyən etməklə işi təxirə sala bilər. Barışıq olmadıqda və ya onlar (onlardan biri) nikahın pozulmasında təkid etdikdə nikah pozulur. Tərəflərdən biri razı olmadıqda, məhkəmə barışıq üçün 3 ay vaxt verməklə işi təxirə salır. 3 ay sonra iddiaçı fikrindən daşınmayıbsa, onları boşayır. Təəssüf ki, 3 ay müddətində tərəflərin barışması üçün məhkəmə heç bir iş görmür, görə də bilmir. Çünki müvafiq hüquqi təminatlar yoxdur. Hüquqi təminatlar olarsa, məhkəmə 3 ay ərzində tərəfləri barışdırmaq üçün müvafiq icra hakimiyyəti orqanını, bələdiyyələri, müvafiq qeyri-hökumət təşkilatlarını bu ailə ilə mütəmadi əlaqə saxlamağa, onlarla danışıqlar aparmağa cəlb edə bilər. Məncə, bu, boşanmaların sayını ən azı yarıbayarı azalda bilər".



*"...bu, boşanmaların sayını ən azı yarıbayarı azalda bilər"*

Həmsöhbətimiz onu da vurğuladı ki, ailədaxili problemlər olsa da, heç bir tərəf problemin həlli yolunu axtarmır, əksinə, çıxış yolunu boşanmada görür: "Ailədə problem var, amma heç kəs onu həll etməyə çalışmır. Ər-arvad aralarında konflikt olduğu üçün münaqişəni həll etmək qabiliyyətində deyil. Avropa ölkələrində xüsusi ailə psixoloqları var ki, onlar tərəfləri dinlədikdən sonra psixoloji baxımdan yardım edirlər. Bir tərəfdən ağsaqqallar institutu, digər tərəfdən, belə ailə psixoloqlarının, müəyyən problemlərlə bağlı şikayət edəcək qurumun olmaması boşanmaların qarşısının alınmasına sədd çəkir. Beləliklə, tərəflər boşanmaq qərarına gəlirlər. Bu səbəbdən də boşanmaların sayı artır. QHT-lərin sayı artırılsa, psixoloqlardan pulsuz yardım alınsa, qanunvericilik bazası möhkəmləndirilsə, nisbətən də olsa, rəqəmi aşağı salmaq olar".

Hüquqşünas hesab edir ki, qanunvericilikdə hər hansı dəyişiklik etməklə problemin həllini tapacağını gözləmək lazım deyil: "Bu gün boşanan ailələr heç aliment ala bilmirlər. Ata dünyaya gələn övladına kömək etmək istəmir. Uşaq ailədə ən müqəddəs dəyərdir. Ancaq bu insanlar atalıq məsuliyyətini başa düşmürlər. Analar məsuliyyəti dərk etsələr, 2-3 uşağı atıb gedərlərmi? Məsuliyyət hissi azdır bəzi insanlarda. İctimai qınaq daha təsirli olmalıdır ki, gənclər bu işdən çəkinsinlər. Məhkəmələrdə boşanma zamanı gənclərə yol göstərən psixoloq olmalıdır, məsləhətçi olmalıdır. Sadəcə, qanun çərçivəsində ailələrə deyilir ki, get, 3 aydan sonra gələrsən. Bu müddət ərzində ailələrə məsləhətlər verilməlidir, müzakirə aparılmalıdır. Tövsiyə etmək lazımdır ki, müəyyən qədər əziyyətə dözsünlər, qarşılıqlı olaraq müəyyən qədər güzəştə getsinlər, ailələrini qorusunlar. Hər bir ailədə maddi problem ola bilər, evsizlik, işsizlik ola bilər".

***Günel CƏLİLOVA***

# Cinsi zorakılıq üstündə həbs olunan yeniyetmələrin sayı niyə çoxalır...

**Cəmiyyətdə seksual xarakterli cinayətlər törədənlər sırasında təəssüf ki, uşaq və yeniyetmələrə də rast gəlinir. Uşaq və yeniyetmələrin seksual xarakterli zorakılıq hallarına meyl etməsi sözsüz ki, səbəbsiz deyil. Əlbəttə, burada internetdən azad istifadənin də rolu az deyil. Uşaqlar müxtəlif sosial şəbəkələr, o cümlədən də saytlar vasitəsilə bu cür "xəstəliyə yoluxurlar".**




***Kəmalə Ağazadə:** "Uşaq nə qədər diqqətdən kənarda, baxımsız, nəzarətsiz qalacaqsa, o, bu cür zorakılıq aktları törədəcək, yaxud buna cəhd göstərəcək"*

Rəsmən seksual xarakterli zorakılığa görə məhkum olunan yeniyetmələrin sayı açıqlanıb. 2018-ci ildə Azərbaycanda 14-17 yaş arasında olan 301 uşaq məhkum olunub. Məlumata görə, 2017-ci ildə bu rəqəm 323 olub. 2017-ci ildə məhkum olunan yeniyetmələrdən üçü qız olub. 2018-ci il qızlarla bağlı belə hal azalıb - cəmi bir nəfər.

2018-ci ildə oğurluq hallarına görə azadlıqdan məhrum edilən yeniyetmələr üstünlük təşkil edib. Ötən il 151 yeniyetmə oğurluq, 38-i qəsdən sağlamlığa ağır zərər vurma, 20-si xuliqanlıq, 14-ü seksual xarakterli zorakılıq hərəkətləri, 13-ü soyğunçuluq, 12-si quldurluq, beşi isə qəsdən adam öldürməyə görə məhkum olunub.

Dəmir barmaqlıqlar arasına salınan yeniyetmələrin 50-si 14-15 yaş, 251-i isə 16-17 yaş kateqoriyasında olanlardır. Məhkum olunanlardan 263-ü hər iki valideyni olan ailədə, 36-sı isə tək valideyni olan ailədə tərbiyə alıblar. Məhkum olunan 151 yeniyetmə isə heç yerdə işləməyən və oxumayandır.

Uşaq və yeniyetmələrin seksual xarakterli zorakılıq hallarına yol verməsi hansı səbəblərlə bağlı olar?

Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə "Bakı-Xəbər"ə bildirdi ki, ölkəmizdə seksual xarakterli zorakılıq törədən uşaq və yeniyetmələr əsasən valideyn nəzarətindən kənarda qalanlardır. K.Ağazadənin sözlərinə görə, bu yola əl atıb sonra məhkumluq həyatı yaşamağa məcbur olan uşaq və yeniyetmələrə zamanında valideyn nızarəti olardısa, onlar bu yola əl atmazdılar. "Bütün bunlar, ilk növbədə, uşaqların nəzarətsiz qalması nəticəsində baş verir. Uşaq nə qədər diqqətdən kənarda, baxımsız, nəzarətsiz qalacaqsa, o, bu cür zorakılıq aktları törədəcək, yaxud buna cəhd göstərəcək. Bir statistikada göstərilir ki, filan sayda uşaq və yeniyetmə seksual zorakılıq törədib, başqa bir statistikaya baxsanız görərsiniz ki, orada da pedofiliya ilə bağlı yetərincə rəqəmlər var. Sadəcə olaraq, nəzarətsiz qalan uşaqların sayı çoxdur ki, cinsi zorakılıq törətmiş uşaqların sayı çox görünür".

K.Ağazadə hesab edir ki, bu kimi halların artması üçün xüsusi maarifçilik tədbirləri həyata keçirilməli, valideyn məsuliyyəti artırılmalı, məktəblərdə cinsi tərbiyə mövzusunda söhbətlər, seminarlar keçilməlidir. Ailələr uşaqları ilə dost olmalı, yeniyetməlik dövründə uşaqları ilə söhbətlər etməli, onları hansı təhlükələr gözlədiyi barədə məlumatlandırmalıdırlar. Nəyə görə biz qanunvericiliklə yeniyetmələrin cinsəl münasibət qurmasının qarşısının alınmasına cəhd göstəririk, evlilik yaşı 18 yaş göstərlirsə, bəs erkən nikah nədən qaynaqlanır? Bu barədə ən çox ailələr, ictimaiyyət arasında maarifləndirmə işi aparmaq lazımdır".

K.Ağazadə hesab edir ki, uşaqlar arasında seksual xarakterli zorakılıq hallarının yaranmasında və artmasında internet resursları da yardımçı olur. Onun qeyd etdiyinə görə, valideyn nəzarətsizliyi və məsuliyyətsizliyi nəticəsində bu gün 11, 12, 13 yaşlı uşaqların "İnstagram", "Facebook" səhifələri var və onlara da valideynləri nəzarət etmir: "Uşaqların sosial şəbəkələrdəki hesablarına valideynlər nəzarət etmədikcə, əlbəttə, o uşaqlara yazanlar, diqqət yetirənlər, "sevgi" göstərənlər daha da çox olacaq. Bu baxımdan deyirəm ki, uşaq və yeniyetmələrin seksual xarakterli zorakılıqlara yol verməsinin qarşısının alınmasında əhəmiyyətli rolu valideyn diqqəti və nəzarəti oynaya bilər. Valideynlər uşaqlarına münasibətdə həssas və məsuliyyətli olsalar, onlara nəzarət etsələr, uşaq və yeniyetmələr bu kimi hallara meyl etməz".

***İradə SARIYEVA***

# Bəzi alış-veriş saytlarının həm də "intim xidmət" saytlarına çevrilməsi hiss olunmağa başlayır

**Son vaxtlar müxtəlif alış-veriş saytlarında xanımla tanış olmaq istəyənlərin sayı artıb. İlk baxışdan gülməli olsa da, bunu edən yüzlərlə insan var. Fotolarını və özləri barədə məlumatları tanışlıq üçün sosial şəbəkələrdə paylaşan insanlar əmlak və əşya satışı üçün nəzərdə tutulan elan saytlarında da fəaldırlar.**




***Fatimə Hacıbəyli:** "İnsan alveri ilə məşğul olan şəxslər öz qurbanlarının çoxunu elə bu cür saytlar vasitəsilə tələyə salırlar"*

Alış-veriş saytlarında kiminləsə tanış olmaq istəyənlər "Gözəl xanımla tanış olmaq istəyirəm", "Yaraşıqlı oğlanlar, özünə güvənənlər və ciddi olanlar zəng etsin" tipli elanlara rast gəlmək mümkündür.

Kişilərlə bərabər "ömür-gün yoldaşı" axtarışına çıxan xanımlar da bu saytlara müraciət edirlər:

"Sadə, səmimi, təmiz, sadəlövh birini axtarıram. Ətraflı "WhatsApp"da danışaq. Bir uşağım var, boşanmışam".

Ekspertlər bu növ elanlara xüsusi nəzarət edilməli olduğunu deyirlər. Bu addıma görə cavabdehlik məhz həmin elan saytlarının üzərinə düşür. Ekspertlər bir çox məlumatın qeyd edildiyi belə elanlar vasitəsilə şantaj edilənlərin də az olmadığını deyirlər. Onu da qeyd edək ki, pul müqabilində tanışlıq və ya digər əməllər insan alverinin predmeti qəbul edilə və cinayət tərkibi hesab oluna bilər.

"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, alış-veriş saytlarında xanımla (bəylə) tanış olmaq kimi elanların yayılmasının məqsədi əxlaqsızlığın yayılmasıdır: "Bu tip saytlar aidiyyəti qurumların nəzarətində olmalıdırlar. Alış-veriş etmək üçün həmin sayta daxil olan şəxs tanışlıq elanı görərsə, dərhal hüquq-mühafizə orqanlarına müraciət etməlidir. Danılmaz faktdır ki, bu cür tanışlıq saytından istifadə edənlərin əsas məqsədi özünə ömür-gün yoldaşı tapmaq yox, əylənmək üçün tərəf müqabili axtarmaqdır. Yəni bu tip saytlar üzərindən tanışlıqlar əyləncə xarakteri daşıyır. Xarici ölkələrdə tanışlıq saytları vasitəsilə bir-birini tanıyan gənclərin, hətta bir qədər yuxarı yaş həddində olan insanların evlənməsi halları çoxdur. Amma bizdə belə hallar barmaqla sayılacaq həddə ola bilər. Hətta əks cinsin nümayəndələri arasında belə saytlardan istifadə edib qeydiyyatdan keçən xanımlara münasibət də birmənalı deyil. Bu bizim xalqın mental dəyərləri, ailəyə münasibətilə bağlı formalaşmış adət-ənənələrə əsaslanır. Azərbaycanda tanışlıq saytları vasitəsilə ailə quranların çoxu əcnəbilərlə izdivaca girənlərdir. Onların da çoxu bu cür tanışlığın qurbanına çevrilir. Bu gün də insan alveri qurbanları arasında tanışlıq saytları vasitəsilə xaricə gedib aldanan, qurbana çevrilənlər az deyil".

*"Alış-veriş saytlarında "tanış olmaq olar" tipli elandan istifadə edənlərin əsas məqsədi özünə ömür-gün yoldaşı tapmaq yox, əylənmək üçün tərəf müqabili axtarmaqdır"*

Həmsöhbətimiz onu da vurğuladı ki, gənclər bu tip elanlar üzərindən qurulan münasibətlərdə diqqətli olmalıdırlar: "Nəzərə almaq lazımdır ki, bu cür saytlardan insan alverçiləri də yararlanırlar. Onlar öz qurbanlarının çoxunu elə bu cür saytlar vasitəsilə tələyə salırlar. Tanışlıq saytlarında qeydiyyatdan keçən xanımlar arasında ilk ailə həyatı uğursuz olan gənc qadınlar daha çoxdur. Belə qadınlar insan alverçiləri üçün həmişə maraqlı olub. Onlar xaricdə gözəl həyat vəd edərək evlənmək üçün dəvət etdikləri qadını asanlıqla öz tələlərinə sala bilirlər. Tanımadığı ölkədə sənədləri əlindən alınan qadınlar insan alverçilərinin əmrinə tabe olmaq məcburiyyətində qalırlar. Qurbanların dediklərindən də üzə çıxır ki, belələrinin tanışlıq saytları üzərindən münasibət qurmasının məqsədi elə aldatmaq xarakterli olub. Onlar arasında işgəncələrə və cinsi istismara məruz qalanlar çoxluq təşkil edir".

***Günel CƏLİLOVA***

**Azərbaycanda özünüməşğulluq proqramına bu ilin 8 ayında cəlb olunanların 2555 nəfəri həssas kateqoriyadan olan şəxslərdir. Bu barədə mətbuata açıqlamasında əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev məlumat verib. O bildirib ki, özünüməşğulluq proqramının əhatə dairəsi 2017-ci ilə nisbətən 2018-ci ildə 6,5 dəfə genişləndirilib və 7267 nəfər özünüməşğulluğa cəlb edilib.**

# Özünüməşğulluq proqramına cəlb olunmuş minə yaxın əlil şəxs - tək bu il ərzində...



Onun sözlərinə görə, 2019-cu ildə isə bu proqrama 10 min ailənin cəlb edilməsi nəzərdə tutulub: "Bu ilin 8 ayı ərzində artıq 4589 nəfər proqram çərçivəsində təlimlərə cəlb olunub və 3052 nəfər təlimləri bitirib. Proqrama cəlb olunanlardan 16,4 faizi Bakı və Sumqayıt şəhərlərinin, 83,6 faizi digər şəhər və rayonların payına düşür. Proqram iştirakçılarının 47 faizə qədərini sosial müdafiəyə xüsusi ehtiyacı olan həssas əhali qruplarına aid şəxslər təşkil edir".

A.Əliyev xüsusi olaraq qeyd edib ki, proqram iştirakçılarının 993 nəfəri əlilliyi olan şəxslər, 304 nəfəri ünvanlı sosial yardım alan şəxslər, 712-si məcburi köçkün, 408 nəfəri gənclər, 138 nəfər şəhid ailəsi üzvüdür.

Özünüməşğulluq proqramına həssas kateqoriyaya aid olan 993 nəfər əlilliyi olan şəxsin cəlb olunması ciddi rəqəmdir. Bu onların işlə təmin edilməsi deməkdir. Hansı ki, bu məsələ son dövrlər çox aktualdır. O baxımdan əlilliyi olan şəxslərin sözügedən proqramdan yararlanması onların məşğulluq probleminin həllində necə rol oynayır?

Məsələyə münasibət bildirən Əlil Təşkilatları İttifaqının sədri Davud Rəhimlinin sözlərinə görə, sözügedən proqram əlilliyi olan şəxslərin məşğulluq probleminin həllinə müsbət təsir göstərir: "Ona görə də buna müsbət yanaşıram. Son vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, eyni zamanda, BMT-nin bu sahədə gördüyü işlər təqdirəlayiqdir. Nəzərə almaq lazımdır ki, sözügedən istiqamətdə işlər təkcə Bakı şəhərində deyil, bütün respublika üzrə həyata keçirilir. Nəticədə təkcə bu il 8 ayında 993 nəfər əlilliyi olan şəxs özünüməşğulluq proqramına cəlb edilib. Əlilliyi olan şəxslərin bu proqrama cəlb edilməsi onların işlə təmin edilməsinə gətirib çıxarır. Bu həm də sözügedən kateqoriyadan olan şəxslərin müavinətdən asılılığının qarşısını alır. Əlilliyi olan şəxs bu zaman təkcə aldığı müavinətin ümidinə qalmır. Bu zaman onlar həm də başqa insanların da məşğulluğunun təmin olunmasına dəstək vermiş olurlar. Çünki hansısa məşğulluq sahəsi yaradılanda başqa kateqoriyadan olan insanlar da ora cəlb edilir və onlar işlə təmin olunurlar. Ona görə də belə proqramlar əlilliyi olan şəxslərin məşğulluğunun təmin olunmasında mühüm rol oynayır".

***Davud Rəhimli:** "Belə proqramlar əlilliyi olan şəxslərin məşğulluğunun təmin olunmasında mühüm rol oynayır"*

***Aynurə Xudiyeva:** "...onların cəmiyyətə inteqrasiyasına da müsbət təkan verir"*

"Şəfqət Nuru" Kimsəsizlərə Yardım Xeyriyyə İctimai Birliyinin rəhbəri, birinci qrup əlil Aynurə Xudiyevanın sözlərinə görə, özünüməşğulluq proqramına əlilliyi olan şəxslərin cəlb edilməsi onların işlə təmin edilməsinə yardım edir: "Hansı ki, bir sıra əlilliyi olan şəxslər işsizlikdən əziyyət çəkirlər. Müəyyən özəl təşkilatlar bu kateqoriyadan olan şəxsləri işə götürməkdə maraqlı olmurlar. Müxtəlif vasitələrlə bundan yayınırlar. Yenə sağ olsun dövlət qurumlarını, bu məsələyə diqqət ayırırlar. Müəyyən proqramlar çərçivəsində əlilliyi olan şəxsləri işlə təmin edirlər. Hesab edirəm ki, belə proqramlar əlilliyi olan şəxslərin işlə təmin edilməsi ilə yanaşı, onların cəmiyyətə inteqrasiyasına da müsbət təkan verir".

***Vidadi ORDAHALLI***

# Sosial sığorta haqlarının yığımı sahəsində görülmüş işlər müzakirə edilib




**Sentyabrın 14-də Vergilər Nazirliyinin Tədris Mərkəzində Vergilər nazirinin birinci müavini Sahir Məmmədxanovun sədrliyi ilə "Sosial sığorta haqlarının yığımı üzrə görülmüş işlər və mövcud vəziyyət, problemlər" mövzusunda konfrans keçirilib.**

Vergilər Nazirliyinin mərkəzi aparatının məsul şəxsləri, yerli vergi orqanı əməkdaşları, Dövlət Sosial Müdafiə Fondunun məsul şəxsləri və müstəqil ekspertlərin iştirakı ilə keçirilən tədbirdə dövlət sosial sığorta haqlarının yığımı sahəsində görülmüş işlər, sosial sığorta üzrə qanunvericilik və hesablama mexanizmləri, sosial sığorta üzrə proqnozların icra vəziyyəti, bu sahədə mövcud olan çətinliklər, təhlil istiqamətləri və risk meyarları müzakirə olunub.

Tədbirdə Vergilər nazirinin birinci müavini Sahir Məmmədxanov çıxış edərək, dövlət sosial sığorta haqlarının yığımı sahəsində Vergilər Nazirliyi tərəfindən ötən müddət ərzində görülmüş işlər barədə məlumat verib və cari ilin ikinci yarımilliyində bu sahədə qarşıda duran əsas məsələlər barədə danışıb. Qeyd edilib ki, aparılmış işlərin nəticəsi olaraq 2019-cu ilin yanvar-avqust aylarında məcburi dövlət sosial sığorta (MDSS) və işsizlikdən sığorta haqları üzrə proqnozlar artıqlaması ilə icra edilib. Məcburi dövlət sosial sığorta haqları üzrə nəzərdə tutulandan 7 faiz, işsizlikdən sığorta haqları üzrə 6,7 faiz artıq vəsait daxil olub. Eyni zamanda, sosial sığorta və işsizlik sığortası üzrə borcu olan vergi ödəyicilərinin sayı və borcun ümumi məbləği ilin əvvəli ilə müqayisədə əhəmiyyətli şəkildə azalıb.

Konfransda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndə heyətinin iştirakı ilə birlikdə "inteqrasiya" prosesləri üzrə müəyyən edilmiş Tədbirlər Planı üzrə işlərin icra vəziyyəti nəzərdən keçirilib və gələcək dövlərdə qarşıya qoyulmuş vəzifələrin icrasına dair aidiyyəti üzrə tapşırıqlar verilib.

Vergilər Nazirliyinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Müdafiə Fondunun tədbirdə iştirak edən məzurəçiləri tərəfindən məcburi dövlət sosial sığorta (MDSS) və işsizlikdən sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət, MDSS haqlarının azaldılmasına və ya yayındırılmasına görə maliyyə sanksiyasını tətbiq etmək və digər məsələlərlə bağlı tədbir iştirakçıları ətraflı məlumatlandırılıb.

Tədbirdə dövlət sosial sığorta haqlarının yığımı sahəsində mövcud çətinliklər ətraflı müzakirə edilib, bəyannamələrin kameral vergi yoxlamalarının aparılmasına dair, vaxtında təqdim edilməmiş vergi bəyannamələri (hesabatları) ilə bağlı vergi ödəyicilərindən hesabatların qəbulu və s. bağlı vergi orqanlarının rastlaşdıqları məsələlər təhlil edilib. Tədbir iştirakçılarının sosial sığorta öhdəliklərinin icrası ilə bağlı təcrübədə qarşıya çıxan problemlərə dair sualları cavablandırılıb. Tədbirdə iştirak edən müstəqil ekspertlər qaldırılan məsələlərin həlli ilə bağlı öz təkliflərini veriblər.

# Sabunçu rayonundakı "Fazenda" sakinlərinin marşrut problemi...



**Sabunçu rayonu, Balaxanı qəsəbəsinin "Fazenda" adlanan yaşayış massivinin sakinləri ictimai nəqliyyat sarıdan əziyyət çəkirlər.**

Bu barədə qəzetimizə şikayət edən "Fazenda" sakinlərinin dediyinə görə, ərazidə xeyli sayda əhalinin yaşamasına baxmayaraq, ora avtobus işləmir. Balaxanı qəsəbəsinə işləyən 105 saylı marşrut "Fazenda"dan aralı keçir. Nəticədə yaşayış massivi sakinləri sözügedən ictimai nəqliyyatdan istifadə etməkdən ötrü bir neçə kilometr yolu piyada qət etməli olurlar. Sakinlərin istəyi odur ki, yaşayış massivinə yeni marşrut xətti çəkilsin.

***Vidadi***

№ 165 (4063) ■ Qiymәti: 40 qәpik

BAKI XƏBƏR

18 SENTYABR 2019-cu il

www.baki-xeber.com

# Müәmmalı şәkildә yoxa çıxan rәssam 400 il sonra tapıldı

**Dahi rәssam Karavacconun sehirli әsәrlәrini tanımayan yoxdur. Bәs rәssamın özünün möcüzәli şәkildә itdiyini bilirdiniz?**
"Publika.az" xәbәr verir ki, XVI-XVII әsrlәrdә yaşayan incәsәnәt xadimi 38 yaşında müәmmalı şәkildә qeyb olub. Ümumiyyәtlә, Karavacconun uşaqlığı ilә bağlı bir çox mәnbәlәr var. Hәtta, 1606-cı ildә Romanın küçә davasında bir gәnci ödürdüyü dә bildirilir. Bundan sonra, rәssama ölüm hökmü verilir. Lakin 16 yaşlı Mikelancelo qaçıb canını qurtarır. Rәssam 38 yaşında



birdәn-birә yox olur. Dostları onun ölümü ilә bağlı bir sıra fәrziyә uydursalar da, heç biri hәqiqәtә uyğun olmur. Nәhayәt, 2010-cu ildә alimlәr dahi insanın skeletini tapıb üzәrindә ekspertiza aparırlar. Bu işdә rәssamın soyundan olan insanlarla DNT kodlarının uyğunluğu müәyyәnlәşir. Mәlum olur ki, skelet hәqiqәtәn Karavaccoya aiddir vә ölüm sәbәbi Stafilokokk virusu olub.

## Elan

İsmiyeva Əfsanә Rövşәn qızına İqtisad Universitetindәn verilmiş tәlәbә bileti vә tәqaüd kartı itdiyi üçün etibarsız sayılır.

Rәsulov Rauf Xeyrulla oğlunun adına, Bakı şәhәri, Yasamal rayonu, Nәriman Nәrimanov küçәsi (keçmiş Sovetski), ev №205, mәnzil №25 ünvanın 31 dekabr 1980-ci il tarixli №054938 orderinin әsli itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, İnçә kәnd sakini Həşimov Niymәt Əlibala oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 0013 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Rzayeva Leyla Rәşad qızına Azәrbaycan İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Putiyeva Lalә İbrahim qızına Qәrbi Kaspi Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Mirzәyev Azәr Zakir oğluna Azәrbaycan Respublikası Milli Aviasiya Akademiyasi tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Qaracalarova Asya Xәlil qızına Abşeron Donuzkökәltmә Sovxozu tәrәfindәn 19.08.1991-ci il tarixindә N108 әmrlә 28 dekabr 1991-ci il tarixdә verilmiş N108 әmrdәn çıxarış vә N1378 әmr itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şәhәri, Xәzәr rayonu, Binә qәsәbәsi, Mәrdәkan şosesi, döngә N3, ev N2)

Talıbov İbrahim Ağaәli oğlunun adına, Bakı şәhәri, Abşeron rayonu, Masazır qәsәbәsi, Z.Əliyeva küçәsi, ev 108 ünvanının qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır (reyestr N308013115855-10301).

Hacıyev Toğrul Yaşar oğluna Azәrbaycan Turizm vә Menecment Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Mehdiyeva Ayğun Abdurrahman qızına Azәrbaycan İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynova Nigar Şahin qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Sәmәdzadә Qasım Musa oğlunun adına, Bakı şәhәri, Bakıxanov 7, mәnzil 44 ünvanının qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Mәdәt Hәmdulla Nizami oğluna Bakı Mühәndislik Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

## "Azercell Telekom" MMC Tәlәbә Tәqaüdü Proqramına müraciәtlәrin qәbulunu açıq elan edir

**Fәaliyyәt dövrü әrzindә ölkәmizdә tәhsil sәviyyәsinin artırılması, gәnclәrin fәrdi vә peşәkar inkişafı üçün yeni imkanların yaradılması istiqamәtindә layihәlәrin hәyata keçirilmәsi ilә fәrqlәnәn "Azercell Telekom" MMC bu dәfә 2020-ci il üçün Tәlәbә Tәqaüdü Proqramını elan edir.**

2009-cu ildәn başlayaraq, artıq әnәnәvi şәkildә hәr il tәlәbәlәrә dәstәk olmaq mәqsәdilә tәşkil edilәn bu layihә nәticәsindә 180-dәn çox gәnc "Azercell" şirkәtinin tәqaüdçüsu adına layiq görülüb.

"Rәqәmsal dünyanı "Azercell" ilә kәşf et" şüarı altında keçirilәn "Azercell"in Tәlәbә Tәqaüdü Proqramında son iki kurs tәlәbәlәri öz biliklәrini sınaya bilәrlәr. Tәlәbәlәr akademik biliklәri, dünyagörüşü, elmә vә tәhsilә hәvәsi vә digәr meyarlar әsasında dәyәrlәndirilәcәklәr. Qaliblәr tәhsil ilinin sonunadәk "Azercell"dәn 200 AZN mәblәğindә aylıq tәqaüd almaqla yanaşı, telekom sahәsi haqda biliklәrini artırmaq, rәqәmsal dünyanın әn son trendlәri ilә yaxından tanış olmaq, şirkәtin korporativ tәdbirlәrinә dәvәt almaq, müxtәlif tәlimlәrdә iştirak etmәk vә tәcrübә keçmәk üçün әvәzolunmaz fürsәt әldә edәcәklәr. Qeyd edәk ki, "Azercell" Tәlәbә Tәqaüdü 2020-dә iştirak üçün müraciәtlәrin qәbulu artıq açıqdır vә son qәbul tarixi oktyabr ayının 16-dır. Tәqaüd proqramı üzrә müraciәt etmәk üçün müvafiq elektron müraciәt әrizәsi doldurulduqdan sonra tәlәbә bileti vә qiymәt kitabçasının ( transkript) skan versiyaları ilә birlikdә telebe@azercell.come-mail ünvanına göndәrilmәlidir.

Yeni dәrs ilindә "Azercell" tәqaüdçüsü adını qazanmaq fürsәtini qaçırma!

Əlavә mәlumat üçün https://www.azercell.com/az/company/career/development_oportunities/bursary2020/ sәhifәsinә daxil olun.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.





**Qoç** - Yetәrincә mürәkkәb gündür. Ciddi vә mürәkkәb iş planlaşdırmasanız da, çәtinliklәrlә qarşılaşacaqsınız. Dәstәyinә vә ya yardımına bel bağladığınız insanlar vәdlәrini yerinә yetirmәyәcәklәr.

**Buğa** - Mәqsәdә çatmaq üçün müәyyәn qurbanlar vermәk gәrәkdir. Planları reallaşdırmaq üçün nәzәrdә tutulduğundan daha çox vaxt vә maliyyә vәsaitinin gәrәkli olacağına hazırlaşın. Hәr şey ilkin variantlara uyğun olmayacaq.

**Əkizlәr** - Darıxdırıcı vә rutin gündür. Yaddaqalan tәәssüratlar, qeyri-adi görüşlәr istәyirsiniz. Onların heç biri olmayacaq. Ciddi dәyişikliklәrә can atmayın. Yaxınlarınızla fikir ayrılıqları yarana bilәr.

**Xәrçәng** - Yaşananlara daha nikbin nәzәrlәrlә baxın. Proseslәr o qәdәr dә pis deyil. Yeni imkanlar yaranır, sәrfәli perspektivlәr formalaşır. İntuisiyanıza, işgüzar duyumunuza güvәnә bilәrsiniz.

**Şir** - Uğurlar zәhmәt vә cәhdlәrlә düz mütәnasib olacaq. Nәyәsә nail olmaq istәyirsinizsә, tәnbәllik etmәyin. Kimsәnin yardımına vә ya kömәyinә bel bağlamayın. Müstәqil olun, tәkbaşına işlәyin.

**Qız** - Astagәl vә tәnbәl olmayın. Süst insanın qalib gәlmәsi, uğur qazanması mümkün deyil. Mәqsәdә çatmaq üçün var qüvvәnizlә çalışmalısınız. Tәcrübәli vә bilikli olduğunuz sahәdә fәaliyyәtinizi aktivlәşdirin.

**Tәrәzi** - Yeniliklәr vә fәrqli layihәlәrin hәyata keçirilmәsi üçün әn yaxşı günlәrdәn biri deyil. Rutin mәsәlәlәrin hәllinә, cari işlәrin görülmәsinә xüsusi diqqәt ayırın. Genişmiqyaslı işlәri ertәlәmәk dә olar.

**Əqrәb** - Parlaq, yaddaqalan gün olacaq. Günün ilk yarısı xoş xәbәr vә ya dәyәr verdiyiniz insanla görüş sizi sevindirәcәk. Yeni tanışlıqlar üçün әlverişli zamandır. Amma әsla romantikaya dalmayın.

**Oxatan** - Günün ilk yarısında situasiyaya kәskin müdaxilәlәr edәrәk hadisәlәrin axarını köklü şәkildә dәyişmәyә can atmayın. Hәr şeyi nәzarәtdә saxlamaq mümkün deyil. Axşam saatlarını әylәncәyә hәsr edin.

**Oğlaq** - Vurnuxmadan vә tәlәskәnlikdәn kәnar durun. Tәcili işlәrdәn yan qaçmayın, hadisәlәrin axarını diqqәtlә izlәyin. Başqalarının problemlәrinin hәllinә can ataraq öz çәtinliklәrinizi unutdurmayın.

**Dolça** - Ətalәtli, süst, astagәl olmayın. İndiyәdәk sizә maraqlı vә cazibәdar tәsir bağışlayan işlәrin bәzilәrinin gerçәk mahiyyәtini anlayacaqsınız. Gündәlik qayğıları qulaqardına vurmayın.

**Balıqlar** - Günün ilk yarısından rutin işlәrin vә adi problemlәrin sayı artacaq. Karyera inkişafı ilә bağlı konkret addımlar atmaq üçün әlverişli zaman deyil. İşdә rәhbәrlik tәşәbbüslәrinizi dәstәklәmәyәcәk.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*



## Qaçaqmalçılarda 800 yaşı olan kitab aşkarlandı

**Türkiyәnin Diyarbәkir bölgәsindә qaçaqmalçılardan tәxminәn 800 yaşı olan qәdim kitab aşkarlanaraq götürülüb.**

"AZƏRTAC" bildirir ki, polisin kitab qaçaqmalçılığı ilә bağlı keçirdiyi xüsusi әmәliyyat zamanı ceyran dәrisi üzәrindә yazılmış 30 sәhifәlik "İncil" vә eyni materialdan olan ivrit dilindә yazılmış fәrman aşkarlanıb. Polisin şübhәli qismindә altı nәfәri hәbs etdiyi bildirilir.

***Hazırladı: Ramil QULİYEV***

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.